Bizim Ailə

№:12- Mart- Aprel- 2010- Qadın Ailə Jurnalı

Zamanın fövqündə: dünənin, bu günün və sabahın QADINI

ALLAH SİZİ EŞİDİR
və
DƏYƏR VERİR

AZƏRBAYCAN ÇİNARLARI

CƏMİYYƏTİMİZDƏ QADININ DƏYƏRİ

BİZİM AİLƏ
Qadın- Ailə jurnalı
Dövlət Reystr№ 20929

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Samirə Mahmudova

Məsul katib:
Mədinə Əliyeva

Redaktor müavinləri:
Qətibə Vaqifqızı
Eslemnur Məmmədova

Redaksiya heyəti:
Dr.Mehri Məmmədova
Dr.Qiymət Məhərrəmli
Dr.Sevinc Aslanova
Dr.Mehriban Qasımova
Dr.Samirə Həsənova
Zeynəb Nuri
Meryem Demir
Vüsalə Quliyeva
Rəna Mirzəliyeva
Aynur Quliyeva
Aygün Məmmədzadə
Mətanət Kərimova

Abunə və reklam işləri:
Aynur Məmmədova

Dizayn: Bizim ailə

Ünvan: Bakı şəhəri, Cəfərov Qardaşları küçəsi. 16
Tel: (+994 050) 369 65 23
(+994 12) 502 07 55

Web:
www. bizimaile. az
e-mail:
bizimaile@bizimaile.az
bizimailedergisi@yahoo.com

Əziz oxucu!

"Bizim Ailə" jurnalı öz oxucuları arasında kişi və qadın ayrımı etmir. Ailə məsələlərini əhatə edən hər mövzuda olduğu kimi, jurnalımızda dərc olunan yazıların daha çox qadınlar tərəfindən oxunduğunu müşahidə edirik. Belə olan halda: **"Yuvanı quran dişi quşdur"** həqiqəti öz aktuallığını yenə də saxlamışdır. Buna görə də, bu sayımızın əsas mövzusu müasir dövrümüzdə qadın haqları və sosial həyatda qadının mövqeyi məsələləridir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Millət vəkili Mehriban Əliyeva qadınlar haqqında belə deyir: **"Qadın olan yerdə səmimiyyət və sevgi var, düşmənçilik və nifrətə yer yoxdur".**

İslam dini də qadına böyük dəyər vermişdir. İslamda qadın şəfqət, mərhəmət və hörmət göstərilməsi lazım olan bir şəxsdir. Peyğəmbərimiz (s.ə.s.) qadınların narın, zərif və nəzakətli olduqlarını vurğulayaraq, onların heç incidilməməsini tövsiyə etmişdir.

Bu sayımızda möhtərəm **Osman Nuri Topbaşın "Duadakı sirr", Vüsalə Quliyevanın "Dinimizdə mömin qadın və kişi", Haticə Şahinin silsilə yazılarından olan "Azərbaycan çinarları", AME Əlyazmalar İnstitutu İlahiyyat elmləri namizədi Nailə Süleymanovanın "Xınalıq-Bizim tariximizdir"** yazıları oxucularımızın hüzuruna təqdim olunacaq. Bundan başqa həmişə olduğu kimi jurnalın bu sayında da dərc etdiyimiz xanımlara faydalı məsləhətlər, mətbəx sirləri, gözəlliyin sirləri, balaca dostlarımıza gülməcələr və başqa maraqlı məlumatlar inanırıq ki, ürəyinizcə olacaqdır.

May ayında görüşmək üzərə sizdən ayrılırıq.

Biz sizə möhkəm və sağlam ailə qurmağın sirlərini öyrənməkdə kömək edirik, doğru olanı deyirik, qalanı isə sizin üzərinizə düşür. Sağlıqla qalın.

İÇİNDƏKİLƏR

3

ZAMANIN FÖVQÜNDƏ: DÜNƏNİN, BU GÜNÜN VƏ SABAHIN QADINI

6

MÜASİR DÖVRÜMÜZDƏ QADIN HAQLARI

22

DUADAKI SİRR

32

PEYĞƏMBƏR ƏXLAQI

ZAMANIN FÖVQÜNDƏ: DÜNƏNİN, BU GÜNÜN VƏ SABAHIN QADINI
Samirə MAHMUDOVA.....3

MÜASİR DÖVRÜMÜZDƏ QADIN HAQLARI
Mədinə ƏLİYEVA.....6

ALLAH SİZİ EŞİDİR VƏ DƏYƏR VERİR
Meryem DEMİR.....8

ANA OLMAQ
Yeganə AĞDAMLI.....11

DİNİMİZDƏ MÖMİN QADIN VƏ KİŞİ
Vüsalə QULİYEVA.....12

İNSANLARIN SAĞLIĞINDA DƏYƏRİNİ BİLƏK
Dr. Zəkiyyə BABAYEVA. 14

DÜNYAMIZI BƏZƏYƏN ƏTİRLİ ÇİÇƏKLƏRİMİZ
Xəyalə ABDULAZİM.....16

AZƏRBAYCAN ÇİNARLARI
Hatice ŞAHİN.....18

HZ. XƏDİCƏNİN TİMSALINDA ÖRNƏK XANIM
Şefika Kaya MERİC.....20

DUADAKI SİRR
Osman Nuri TOPBAŞ 22

İTİRDİYİMİZ İMAN HƏYƏCANI
Xanım HƏMZƏYEVA.....29

XINALIQ-BİZİM TARİXİMİZDİR
Dr. Nailə SÜLEYMANOVA.....30

PEYĞƏMBƏR ƏXLAQI
Mətanət KƏRİMOVA.....32

MƏDİNEYİ MÜNƏVVƏRƏ
Nüşabə ƏHMƏDOVA..... 34

FATİMƏNİN DASTANI
Asim HƏMİDOV.....36

LƏZZƏT DÜNYASI
Müyesser TAŞLIYAR.....38

MƏTBƏX MƏDƏNİYYƏTİ
Məryəm XƏLİLOVA.....,.....40

GƏLİN BİRLİKDƏ GÜLƏK
Hicran NOVRUZOVA.....42

MƏKTUBLAR.....44

Samirə MAHMUDOVA

Zamanın fövqündə: dünənin, bu günün və sabahın QADINI

Allah yaratdığı varlıqlar içərisində insana, insanlardan da qadına xüsusi haqlar verərək onu ucaltmışdır. Cahiliyyət dövründə qadın hüquqları tapdalanırdısa, artıq İslamiyyət dövründə qadın öz haqqını aldı, İslam ona əvvəllər sahib olmadığı müstəsna hüquqlar verdi. Qadın haqqında Qurani-Kərimdə müstəqil surə endi.

Allah təalanın qadınlara bu qədər dəyər verdiyinə rəğmən, bunlara riayət edilib-edilmədiyini öyrənmək üçün tarixə nəzər salaraq cavab vermək olar. Eyni zamanda həyatda müşahidə etdiyimiz və qarşılaşdığımız örnəklərlə onların haqlarının tapdanıb-tapdanmaması haqqında fikir söyləmək olar. Çünki həyat bir dünya səhnəsidir. Bu səhnədə həm əzazil və qəddar insan obrazı, həm də humanist, ədalətli tiplər yer alır.

Keçmiş zamanlara baxdığımız zaman şahid oluruq ki, İslamın qadına verdiyi haqların heç biri tətbiq edilməmişdir. Qadın doğulduğu gündən özünü dərk edənə qədər evdə hörmət edilməyən, oxudulmayan, bunun üçün də korafəhim, aciz qalaraq atalarının, ərlərinin əlində oyuncağa çevrilmişlər. Heç bir hüququndan istifadə edə bilməmişlər. Əvvəlcə ata evində dustaq, daha sonra da ondan heç bir fərqi olmayan ər evində də eyni müqəddəratı yaşayırdı. İslamdan qabaq cahiliyyət dönəmində də vəziyyət bu şəkildə idi. Qadınlara sərt davranılır, onların hər hansı bir mövzuda fikirləri bir qırağa, istəkləri belə

nəzərə alınmırdı. Ciddiyyəti və sərtliyi ilə tanınan Hz.Ömərə aid bir əhvalat buna gözəl nümunədir. Sad b. Əbi Vaqqas buyurur ki: *"Ömər bir gün Rəsulullah (s.ə.s.)in yanına girmək üçün izn istədi. O vaxt Hz.Peyğəmbərin yanında Qureyşin qadınlarından ibarət bir qrup var idi. Onlar səslərini yüksəldərək danışır, bir neçə məsələ haqqında sual verirdilər. Ömərin səsini eşidəndə səslərini alçaldıb üst-başlarını səliqəyə saldılar. İçəri girən Ömər Rəsulullahın güldüyünü görüb, bunun səbəbini soruşdu.* Rəsulullah (s.ə.s.): *"Bunlara baxıb çaşdım, yanımda oturub sual verirdilər, sənin səsini eşidən kimi tez özlərini qaydaya salmağa başladılar"*,- dedi. Hz.Ömər: "*Ya Rəsulullah, sən onların qorxub çəkinmələrinə daha layiqsən*",- dedi və onlara dönüb: *"Ey özü-özlərinin düşmənləri! Rəsulullahdan çəkinməyib məndən çəkinirsinizmi?"*- dedi. Onlar: *"Bəli, sən Rəsulullaha nisbətən çox sərt və qatı qəlblisən*",- dedilər. Buna qarşılıq Rəsulullah (s.ə.s.) belə buyurdu: *"Nəfsimi əlində tutan Allaha and olsun ki, şeytan bir vadidə sənlə qarşılaşmış olsa, əlindən başqa vadiyə qaçar, sənin gözünə görünməzdi"*.

Müasir dövrümüzdə qadın haqları haqqında nə demək olar? Hüquqlarını sərbəst şəkildə müdafiə edə bilirlərmi, öz haqlarından istifadə edirlərmi? Yoxsa ifrat sərbəstlik və rahatlıq yollarını azmasına səbəb olur, hüquq və azadlığı başqa cür anlayaraq səhvlərə, xətalara yol verirlər?

Dünya qloballaşma məngənəsində qıvrandığı bir vaxtda qadınlarımızın arasında onlara verilən haqlardan sui-istifadə edənlər vardır. boşanma haqqım var deyərək, qadın hər mübahisə etdiyi an boşanma yolunu seçir. Təhsil alma haqqım var deyərək, təhsil almaq üçün imanından, inancından keçənlər olur. Kişilərlə eyni haqlara sahibəm deyərək, qadın yaradılışındakı və xilqətindəki incəlik və zərifliyi unudaraq, bəzən hər yerə əl uzadır, aidiyyatı olmayan işlərə can atır, bəzən istismar edilir, azadlığı qəsd edərək özünü köləliyin əsarəti altında hörmətsiz edir. İşləyib pul qazanmaq məqsədi güdən qadın fitrət etibarilə alışmadığı, gücü yetmədiyi çətin iş şərtlərinə boyun əyir. Bəzən ailədə kişinin də evə çörək gətirə bilməməsi, qadının bu işlərə əl atmasına, ağır yükün altına girməsinə səbəb olur.

Bəzən işləməməyi bəs deyilmiş kimi, evdə də ağır qaydalar altında əzilən qadın, nəticədə, üsyan edir və ailə bağlarının qopmasına səbəb olur. Evinin işini görən, uşaqlarının tərbiyəsi ilə məşğul olan, evin dolanışığını təmin edən qadın, bütün bu ağırlıqdan sonra həyat yoldaşının tənələrinə və əmr-

Həyat yolunda azmamaq, doğruluqdan sapmamaq üçün haqlarımızı, hüquqlarımızı yaxşı bilməliyik, bildiklərimizi ətrafımızda olanlarla bölüşdürməliyik, haqlarımızdan sui-istifadə edib başqalarını əzməməliyik.

lərinə dözə bilmir, səbr kasası daşır.

İnsanlar bəzən Allah təalanın qoyduğu nizamı unudurlar. Allahın hikmətlərindəndir ki, onları insan olaraq eyni yaratsa da, fiziki cəhətdən fərqlidirlər. Hər birinin qabiliyyətinə və təbiətinə uyğun vəzifələri vardır. Bütün xüsusiyyətlərinə, yaxşılıqlarına və çətinliklərinə baxmayaraq analıq vəzifəsi qadına aiddir. Bu vəzifə kişidən daha çox onun zamanını evdə keçirməsini vacib edir.

Fitrətdəki bu fərqlilik qadın təhsil almamalıdır və ya işləməməlidir kimi səhv nəticələrə gətirmir. Əsri-Səadət dönəmində və zəmanəmizdə qadınlarımızın elmdə əldə etdiyi nəticələr göz önündədir.

Müasir dövrümüzdə qadınlar öz haqlarını tələb edə bilirlər. Onlara verilən rahatlıqdan, imtiyazlardan, hüquqlarından qanun çərçivəsində istifadə etmə hüququna sahibdirlər. Bir tərəfdən də qeyd etmək istərdim ki, hələ də keçmişin qalıqlarını özündə daşıyanlar qadının haqlarını sui-istima edirlər.

Yaradılan hər şeyin bu həyatda yaradılış qayəsi, yaradana və çevrəsinə verəcəyi insanlıq borcu vardır. Allah hər birimizi ilk olaraq insan yaratmışdır və bizim insan olaraq vəzifələrimiz, məsuliyyətlərimiz, cavabdeh olduğumuz məsələlər vardır. Həyat yolunda azmamaq, doğruluqdan sapmamaq üçün haqlarımızı, hüquqlarımızı yaxşı bilməliyik, bildiklərimizi ətrafımızda olanlarla bölüşdürməliyik, haqlarımızdan sui-istifadə edib başqalarını əzməməliyik. Bizə hüquq və haqlarımızı ən yaxşı öyrədən isə Qurani Kərimdir.

KƏLAĞAYILI QADIN

Kəlağayılı qadın gördüm,
Qoşa hörük tanış mənə.
Tüğyan etdi köhnə dərdim,
Ürək dedi: Danış: - mənə.

Anam kimi üzü nurlu,
Mənə doğma bəyaz tellər.
Süd ətirli, un ətirli.
O damarlı quru əllər.

İndi o da anam yaşda,
Doğma çöhrə, tanış qırış.
Analar dəyişmir səndə,
Ana Vətən, sənə alqış!

Kəlağayılar nadirləşir,
Gözlərimiz baxa-baxa.
Qorxum yalnız bircə şeydir,
Çarqat kimi yaddan çıxa.

Təmiz ləçək, təmiz addır,
Analarda kəlağayı.
Cehiz versin qızlarına,
Qoy analar kəlağayı.

Tahirə Məğrur

Mədinə ƏLİYEVA
medine_e@yahoo.com

MÜASİR DÖVRÜMÜZDƏ QADIN HAQLARI

İslam günəşi doğmadan, Quran nurları insanlığı aydınlatmadan, Hz. Məhəmməd (s.ə.s.) insanlıqdan uzaq olan bəşəriyyətə həqiqi insanlıq dərsini vermədən əvvəl qadınlar bir qulluqçu, nökər səviyyəsində idi, adi bir əşya kimi alınıb-satılırdı, mülkiyyət və miras kimi haqq və hüquqlardan məhrum idi. Hətta insan kimi yaşamalarına belə imkan verilmirdi.

Qədim Yunanlarda qadın qul kimi alınıb-satılırdı. **Aristotelə görə**, qadın azad və sərbəst olmamalıydı. **Əflatuna görə,** qadın əldən-ələ gəzməli idi. **Romada** qadının miras haqqı yox idi. **Yəhudilikdə** isə yəhudilər belə dua edirlərmiş: *"Əzəli ilahımız kainatın kralı, məni qadın olaraq yaratmadığın üçün sənə həmd olsun!"*. Yəhudilərə görə, qadın müstəqil olaraq yaradılmayıb, kişinin qabırğa sümüyündən, o, cənnətdə sıxılmasın deyə yaradılmışdır. Amma o, şeytanla birləşib Adəm (ə.s.)a xəyanət etmişdir. Buna görə də qadını lənətləmişlər. **Xristianlıqda** isə qadın şeytanın qapısıdır deyilmişdir. **Fransızların** fikrincə, qadın kişiyə xidmət etməsi üçün yaradılmışdır. **İngilislərdə** isə 1805-ci ilə qədər qadını bir mülk olaraq alıb-sata bilirdilər. Qadın nəcis sayıldığından İncilə toxunması belə qadağan olunmuşdur. **Qədim Misirdə** qadın qardaşı və atası ilə evlənə bilərdi. **Cahiliyyə Ərəbistanında** isə qız uşaqları bədliyin işarəti

Ailə başçısı həmişə kişi olmalıdır. Ancaq qadın da onun vəfalı yol yoldaşı, sirdaşı, məsləhətçisi, evinin dirəyi, könül taxtının sultanı mövqeyindən də uzaqlaşmamalıdır. Qadının əldə edə bilməyəcəyi bir iş yoxdur. Çünki qadın anadır, şərəfli müəllimdir, sevgi və şəfqət qaynağıdır.

kimi görülürdü, diri-diri torpağa basdırılırdı.

İnsanlıq, xüsusən qadınlıq İslam dini əsasında layiq olduğu mövqe və qiyməti qazanmış, tarix boyunca istədiyi hüzur və səadətə qovuşmuşdur. Qurani-Kərimdə belə buyurulmuşdur: **"Kişilərin qadınlar üzərində şəriətə görə hüquqları olduğu kimi, qadınların da kişilər üzərində hüquqları vardır". (Əl-Bəqərə 228)**

İslama görə qadın və kişi bir bütünün iki parçası kimidir, bir-birlərini tamamlayırlar. Ayədə buyurulmuşdur ki: "**Onlar sizin, siz də onların libasısınız. Bir-birinizə həddindən artıq yaxınsınız". (Əl-Bəqərə 187)** Qurani-Kərim bu ayə ilə qadını nəcis hökmündən qurtarmış, kişiyə həyat yoldaşı etmişdir. İslamiyyət qadın üzərindəki lənəti qaldırmış, insan oğlunun cənnətdən uzaqlaşmasına qadının səbəb olduğu etiqadını rədd etmişdir.

Qurana görə qadın və kişi bir almanın iki yarısı qədər bir-birinə bərabər olan iki varlıqdır.

Çağdaş Azərbaycanımızda qadınlarımız qərb ölkələrini özlərinə model olaraq uyğun görürlər. Bu isə Azərbaycanda qadınlarımızın açıq-saçıq olmalarına gətirib çıxarır. Bu hal isə dövlətimizin, milli mentalitetimizin və mənəvi dəyərlərimizin pozulmasına səbəb olur.

Hətta bəzi ailələrdə evə rəhbərlik edən qadınlarımız olur. Əvvəllər qadınlar ali təhsil almırdılar, ona görə də ailədə bir qərar qəbul edildikdə qadın ikinci planda qalırdı, *"Qadınlar heç nə bilmir, qoy ev işləriylə məşğul olsunlar"*- kimi layiq olmadıqları sözlərlə qarşılaşırdılar. Son dövrlərdə isə qadınlarımız ali təhsil alırlar. Buna səbəb bəzən oğlanların ailə həyatı qurduqda ali təhsilli qız axtarmalarıdır. Ancaq nəticə heç də gözlədikləri kimi olmur. Çünki bu günün qadını artıq ailədə bərabər söz sahibi olmaq istəyir. Bir qərar qəbul olunduğunda öz fikirlərini rahatlıqla söyləmək fürsəti istəyir. Buna görə də kişilər də qadınlarına qiymət verməli, onların da fikirlərini qəbul etməlidirlər. Çünki bu günün qadını, həqiqətən də, buna layiq olacaq qədər ağıllı və təhsillidir.

Ailə başçısı həmişə kişi olmalıdır. Ancaq qadın da onun vəfalı yol yoldaşı, sirdaşı, məsləhətçisi, evinin dirəyi, könül taxtının sultanı mövqeyindən də uzaqlaşmamalıdır. Qadının əldə edə bilməyəcəyi bir iş yoxdur. Çünki qadın anadır, şərəfli müəllimdir, sevgi və şəfqət qaynağıdır.

Meryem DEMİR

ALLAH SİZİ EŞİDİR VƏ DƏYƏR VERİR



Allah-Təala insan oğlunu qadın və kişidən yaratmışdır. Kişi və qadın olaraq yaradılan insanın bu dünyaya gəlişində hansı qrupdan meydana gəlmək istəməsi öz əlində deyil. Allah-Təala bu gerçəyi belə xəbər verir:

"...O, istədiyinə ancaq qız, istədiyinə də ancaq oğlan verir. Yaxud hər ikisindən – həm oğlan, həm də qız verir, istədiyini də sonsuz edir..." (əş-Şura, 49-50)

Tarixən insanlar, müxtəlif mədəniyyətlər qız-oğlan arasında ayrı-seçkilik edərək birinə yüksək dəyər verərkən, digərinin haqqını aayqlar altına almışlar.

Məsələn Çin:

Çində qadın atasının və böyük qardaşının köləsi sayılırdı. Onların xidmətçisi olmaqdan başqa çarəsi yox idi. Qədim Çində bu statusuna görə qadına ad da verilmirdi.

Yəhudilərdə:

Yəhudi kişilər hər səhər dua edərkən "Ya Rəbb, bizi qadın olaraq yaratmadığın üçün Sənə sonsuz şükürlər olsun!" -deyə qadınları xor görürdülər.

Xristianlarsa Adəm (ə.s)-ın cənnətdən qovulmasını Hz. Həvvaya bağladıqları üçün ilk günahı Hz. Həvvanın işlədiyinə inanaraq onu xor görürlər.

Orta əsrlərdə qadının ruhunun olub-olmaması üzərində mübahisələr gedirdi. Hətta qadının insan olmadığını söylər, fərqli fikrə sahib olan qadınları cadugərliklə günahlandıraraq diri-diri yandırardılar.

Cahil Ərəb cəmiyyətində:

İslamdan əvvəlki Ərəbistan Yarımadasında cəmiyyətdə qadın ən çox həqarətə məruz qalan siniflərdən biri idi. Ərəb cəmiyyətində bir kişinin fikri, təklifi qəbul edilmədikdə "Bu, qadın fikrinə bənzəyir" –deyərək qadına həqarət edirdilər. İslamın gəlişi ilə xanımların cəmiyyətdəki mövqeyi dəyişdi. Allah-Təala qadını və kişini bir-birinə arxa, dayaq qıldı. (ət-Tövbə, 71) Qurani-Kərim cahiliyyət dövründə qız uşaqlarının dünyaya gəlməsi səbəbilə insanların hansı hala düşdüyünü belə xəbər verir:

“Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəblənib üzü qapqara qaralar. Verilən müjdənin pisliyi üzündən tayfasından qaçıb gizlənər.” (ən-Nəhl, 58-59)

İslam dininin qəlbləri aydınladan hökmləri ilə birlikdə səhabələrin ağılları da nurlandı. Qız uşaqlarını xor görmək ortadan qalxmış, onları diri-diri torpağa basdıran zehniyyət artıq dəyişmişdi. Uca Allah kitabında qızların diri-diri basdırılmasını qadağan etdi. (əl-İsra, 31)

Əziz Peyğəmbərimiz də qız uşaqlarını əxlaqlı yetişdirənlərlə axirətdə bərabər olacağını açıqlamışdır:

“Hər kim qız uşağını həddi-büluğa çatana qədər böyüdüb tərbiyə edərsə qiyamət günü o kimsəylə mən beləcə yan-yana olacağıq” –buyurmuş və barmaqlarını bir-birinə bitişdirmişdir. (Riyazus-Salihin, № 269)

İslam dininin qadına nə qədər əhəmiyyət verdiyini Qurani-Kərimin “Mücadələ” surəsində də görməkdəyik. Mədinədə nazil olan bu surənin qadınlar nöqteyinəzərindən çox mənalı bir hekayəsi (səbəbi-nüzulu) vardır. Hadisə belə cərəyan etmişdir:

Həzrət Havlə iman etmiş bir qadın idi. Evs (r.a) adlı, sərt təbiətli bir səhabə ilə evli idi. Bir gün Evs (r.a) xanımını boşadı. Bu boşamanı gerçəkləşdirərkən də əvvəllər ərəblər arasında yayğın şəkildə həyata keçirilən “zihar” üsulundan istifadə etdi. Belə ki, o zamanlar ərəblər həyat yoldaşlarının bəzi üzvlərini ana-bacıları kimi özlərinə məhrəm sayılan qohumlarına bənzədərdilər və bu, boşanma sayılardı. Evs (r.a) da xanımına “Sən mənim üçün anamın kürəyi kimisən” deyərək onu boşamaq qərarına gəldi.

Bu hadisə qarşısında Hz. Havlə birbaşa Peyğəmbərimizin yanına yollandı. Hz. Havlə özündən çıxmışdı. Hz. Havlə yorğun idi. Hz. Havlə bezmişdi. Hz. Havlə haqsızlığa məruz qalmışdı. Hz. Havlə çarəsizdi. Çarəni Hz. Peyğəmbərdən tapacaqdı.

Havlə (r. anhə) Peyğəmbər (s.ə.s)-in evinə gəldi. Rəsulullah onu dinləyirdi. Üsyan edərcəsinə ərindən Peyğəmbərimizə şikayət etməyə başladı. Belə deyridi: “Ey Allahın Elçisi! Evs mənim bütün var-dövlətimi yedi. Gəncliyimi tükətdi. Onun üçün uşaqlar dünyaya gətirdim. İndi isə yaşlandım. Ona uşaq verə bilməz hala gəldim. O da zihar edərək məni boşadı. Məni ortalıqda qoydu. Ya Rəbbi, halımı sənə ərz edirəm. Bu halımı sənə şikayət edirəm.”

Həzrət Havlə bugünün özündə də xor görülən, tərk edilən, əhəmiyyət verilməyən, gəncliyindən sonra kənara atılmış bütün qadınların ortaq üsyanı olmuşdur.

Havləni böyük bir diqqət və ehtiramla dinləyən Hz. Peyğəmbər (s.ə.s) bir anlıq dayandı. Sonra “bu qəbildən olan boşanmalarla bağlı mənə hər hansı bir təlimat gəlməmişdir.” -cavabını verdi. Çünki o, Uca Allahdan vəhy gəlmədikcə öz arzusuna görə danışmazdı. Uca Allahın ona izin verdiyi mövzular xaricində mütləq vəhy gözləyərdi.

Amma çox keçmədən Uca Rəbbimiz “bu işi sənə həvalə edirəm” –deyən qadının yalvarışlarına cavab verdi. Ta yüksəkliklərdən bir cavab gəlirdi. Uca Allahın “Sənin səsini, yalvarışlarını, üsyanını duydum. Sən yalnız deyilsən. Dediklərin göydə əks-səda vermişdir. Arzu etdiyin mövzuda sənə cavab veriləcək və sən razı qalacaqsan” mənasında ayəsi enəcəkdi.

Allah-Təala Havləyə cavab verirdi. Elə

bir cavab ki, Mədinədə hər bir evdə, hər bir küçədə ondan danışılırdı. Bir neçə gün hər yerdə Havləyə verilən cavabdan danışıldı. Havlə kimi məzlum olan bütün qadınlar bir mənada "kişini cəzalandıran" bu ayələri qürurla oxuyurdular.

Uca Allah xanımını bu şəkildə boşamaq istəyən kişiyə bu işin çirkin olduğunu bildirdikdən sonra xanımına dönmək üçün ya kölə azad etmək, ya iki ay ardarda 60 yoxsulu doydurma cəzası verdi. Yenidən xanımına yaxınlaşmaq istərsən, bu cəzanı ödəməlisən. Bunu qadın deyil, kişi ödəyəcək. Çünki qadın haqsızlığa məruz qalır. Rəbbimiz məzlumun və haqsızlığa uğrayanların yanındadır hər zaman.

"Mücadələ" surəsinin ilk ayələri endikdə üzü sevincindən ay kimi parlayan Peyğəmbərimiz (s. ə.s) Havləni çağıraraq "Sənə müjdələr olsun, ey Havlə! Allah sənin səsini eşitdi." -dedikdən sonra ilk ayəni oxudu: **"(Ya Peyğəmbər!) Əri barəsində sənlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən Allah (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir."** (əl-Mücadələ, 1)

Həzrət Havlə bugünün özündə də xor görülən, tərk edilən, əhəmiyyət verilməyən, gəncliyindən sonra kənara atılmış bütün qadınların ortaq üsyanı olmuşdur. Mücadələ surəsi əhəmiyyət göstərilmədiyini zənn edən qadınlara "Xeyr, Rəbbiniz sizə əhəmiyyət verir. Rəbbiniz sizə zülm edən kişiyə dünyada cəza verəcək, həmçinin onu axirətdə də hesaba çəkəcək. Kədərlənməyin, Allah səsinizi eşidir, halınızı görür." –cavabıdır.

…Aradan illər keçir. İkiqat qalmış bir qadın Mədinə bazarında Hz. Ömərin yolunu kəsib nə isə soruşur. Uzun boylu Hz. Ömər əyilib diz çökür. Əllərini qadının çiyninə qoyur. "Buyur, nənə!" –deyir. Qadın uzun-uzadı danışır, Hz. Ömər qulaq asır. Mədinənin lider heyəti heyrət içində "Qoca bir qadın üçün bu qədər zaman sərf edilərmi?" deyə düşünür. Nəhayət qadın deyəcəklərini bitirir və gedir. Hz. Ömər dikəlir.

Oradakılardan biri "Ey möminlərin əmiri! Qüreyş liderlərini bu qoca qarı üçün o qədər gözlətməyə dəyərmi?" –deyə soruşur. Hz. Ömər sərt şəkildə çevrilərək hər kəsin eşidəcəyi bir səs tonuyla: "Sən nə danışdığının fərqindəsənmi? Yazıqlar olsun sənə! Bu qadın Havlədir. Allah yeddi qat səmanın arxasından onu eşitdi, haqqında ayə endirdi. İndi Ömərmi onu dinləməyəcək? Əgər bütün günü məni burda saxlasaydı yenə də onu dinləyəcəkdim."

Kim deyir ki, İslam qadına dəyər vermir. İslamiyyətin bir günəş kimi doğmasıyla birlikdə qadının cəmiyyətdəki mövqeyi yüksəldi, qadın toplumda dəyər verilən, ehtiram göstərilən bir fərd halına gəldi.

Yeganə AĞDAMLI

ANALARA SƏSLƏNİRƏM

Ana olub, ancaq analıq hissindən məhrum olanlara səslənirəm.

Övladlarını doğurub, küçələrə atan, onlara bədbəxt bir tale ömrü yaşadan **"ana"**lara səslənirəm.

Həyatı çirkinliklərlə dolu, övladının baxınca başını aşağı saldığı **"ana"**lara səslənirəm.

Zəhmət və məşəqqətlə böyütdüyü övladının ailəsini müxtəlif üsullarla dağıdıb onların həyatını zəhərə çevirən **"ana"**lara səslənirəm.

Ana adını daşıyan, ancaq analıq şərəf və hissiyyatından məhrum olan **"ana"**-lara səslənirəm.

Balalarını bəsləyib böyüdüb, həyata bəxş edən heyvan və quşlar onlardan bir şey gözləmədiyi halda nəfsləri uğrunda övladları ilə çəkişən analar. Bu nəfsi hisslər nə üçün?!

Övladlarının ailə xoşbəxtliyinə sevinməyən analar.

Bu qısqanclıq nə üçün, nəfsi ehtirasları uğrunda övladlarının bir ömürlük həyatına utanc gətirən analar.

Bu ehtiras nə üçün?

Övladlarının gücü çatmayan şeyləri onlardan istəyən analar bu dünya sevgisi nə üçün?

Bəlkə çəkilən əziyyətlərin yuxusuz gecələrin intiqamını alırıq? Onun acısını çıxarırıq, nə üçün?

Hər bir ana övladı üçün əzizdir. Və onu sevmək onun ehtiyacıdır. Cənabi Haqq heç bir qulunun digərinə zülm etməsini istəməz, anası olsa belə.

Əsl analar övladlarını nəfslərindən fədakarlıq edərək maraqları üçün deyil, Allah rizası üçün vətənə və millətə layiq övlad kimi yetişdirənlərdir.

Allah təalanın geniş rəhmət və mərhəmətindən bizə bəxş etdiyi o cövhəri biz niyə, özümüzdən bir parça olan övladlarımızdan əsirgəyirik.

Rəbbim qadınlara bəxş etdiyi bu böyük vəzifənin şüurunda olub, layiqli, faydalı övladlar yetişdirməyi bütün analara nəsib etsin!

Amin!.

Vüsalə QULİYEVA

DİNİMİZDƏ MÖMİN QADIN VƏ KİŞİ

Əmanətə xəyanət etməmək, başqalarının haqqına hörmət etmək, gözlərini, əllərini, haramdan uzaq tutmaq Allaha inanan kişi və qadınların xüsusiyyətləridir.

Allah təala belə buyurur: **"Mömin kişilərə söylə: Gözlərini (harama) dikməsinlər, irz və namuslarını qorusunlar! Çünki bu onların özləri üçün daha təmiz bir davranışdır. Həqiqətən, Allah onların etdiklərindən xəbərdardır". Mömin qadınlara da söylə: Gözlərini harama baxmaqdan çəkinidirsinlər, namus və iffətlərini qorusunlar! Öz-özlüyündən görünən (əl-üz) istisna olmaqla, zinətlərini (baş, boyun, boğaz) açığa çıxartmasınlar". (Nur surəsi 24/30,-31)** Allah təala bu ayələrlə mömin qadın və kişidən davranışda da paklıq və namusluluq istəyir. Mömin qadın və kişilər aşağıdakı xüsusiyyətləri daşıyırlar: **"Mömin kişilər və qadınlar bir-birilərinin dostudurlar. Yaxşılığı əmr edərlər və xoşa gəlməyən şeylərdən çəkindirərlər". (Tövbə 71)**

"Danışanda düz danışar, haqqı, doğrunu söyləyib səbri tövsiyyə edər". (Asr surəsi, 3)

Allaha inanan ağır olub, itaətdə tələsməyən, başqasına təkəbbürlü davranmayan, bir kəslə çəkişməyən, ələ salmayandır. Hətta Allah təala sevgili Peyğəmbərimizə *"Haqlı da olsa çəkişib didişməyən kəsə Cənnətin kənarında bir saray veriləcəyini müjdələmişdir"*. **(Əbu Davud, Ədəb 7)** Təkəbbürlü olmayanları da Allah təala axirətdə xoşbəxt edəcəyini bildirir. **(Qasas 28/83).** Digər bir hədisdə də Peyğəmbər əfəndimiz (s.ə.s.) ələ salmağı qadağan etmişdir: *"Müsəlman qardaşınla didişmə və ələ salma!"* **(Tirmizi, Birr 58)** Həqiqətən də, müsəlman bir insanı (Allahı tanıyan bir insan) ələ salmaq, onun eyblərini üzə çıxarmaq əxlaqı ləkələyər və bu cür insanlar həm Uca Yaradan yanında, həm də cəmiyyət içində etibarını və hörmətini itirər. Bu haqda **"Huməzə"** surəsinin 1-ci və 2 –ci ayələrində Allah təala buyurur: **"Mal yığan və onu dayanmadan sayan, insanların**

arxasınca söz deyən, qaş-göz edərək onu ələ salan hər insanın vay halına". Bu qorxunc, tükürpədici xəbərdarlıqdan qorxmaq və bunu unutmamaq lazımdır. Ərköyünləşməmək, alicənab olmaq yenə mömin qadın və kişilərin xüsusiyyətləridir. Peyğəmbər əfəndimiz: *"Alicənab olanları, təkəbbürlənməyənləri Allah təalanın yüksəldəcəyini"- xəbər vermişdir.* **(Tirmizi, Birr 82)** Peyğəmbər əfəndimiz başqalarını bağışlamağı, kimsəyə qəzəblənməməyi tövsiyyə etmişdir. Hətta səhabələrdən birinin *"Allahın qəzəbindən necə qorunmaq olar"* sualına belə cavab vermişdi: *"Sən də başqasına qəzəblənmə!"* **(Əhməd ibn Hənbəl, Müsnəd II, 175.)** Mömin qadın və kişinin oxuyub, elm öyrənmək və öyrəndiyini başqalarına öyrətmək xüsusiyyəti də var. Bu elm öyrənmək xüsusiyyəti onu daha da dünyagörüşlü edər və onu bu yolda daha da həvəsləndirər. Hz.Peyğəmbər (s.ə.s.) elm öyrənmək istəyənlərin üzərinə mələklərin qanad sərdiyini buyurur. Hədislərin birində: *"Dünya və dünya malı dəyərsizdir, amma elm öyrənmək və öyrətmək çox dəyərlidir"-* buyurmuşdur. **(Tirmizi, Zühd 14)** Mömin qadının və kişinin bir günü o biri gününə bərabər deyil. Yəni hər gün dininə, əxlaqına faydalı olan yeni bir şey öyrənməsi, yeni bilik əldə etməsi insanın təfəkkürünün, düşüncəsinin təmizlənməsinə və daha doğru qərarlar verməsinə səbəb olur. Hz. Peyğəmbər (s.ə.s.) insanlara elm öyrənərkən də Allah təaladan faydalı elm istəməyi tövsiyyə etmişdir. (Müslüm, Zikir 73) Elmi ilə əməl edən alimin arxasınca getməyi, saxta alimlərdən uzaq olmağı buyurmuş, digər bir hədisdə: *"Məscidinə yalnız faydalı bir şey öyrənmək və ya öyrətmək üçün gələn kəsin Allah yolunda cihad edən kəs qədər dəyərli olduğunu bildirmişdir".* **(Əbu Davud,** Elm1) Aşağıdakı hədislərlə sözümüzü yekunlaşdıraq. *Allah təalaya inanan hər bir insan başqalarına faydalı olan insandır. Mömin ülfət edən insandır. Başqaları ilə yaxşı keçinəndir.* **(Hədisi-şərif)** Gəlin, bu gəlimli-keçimli, sonu ölumlu-itimli olan bu fani dünyada yalnız xeyir işlər görək, elm, əxlaq əldə edərək yer üzünün şərəfli varlığı olan insanlığın elmsizliyinə, əxlaq zəifliyinə görə çirkablığa məhkum olmasına deyil, onun Allah təala tərəfindən layiq olduğu o yüksək məqama – bəşəriyyətin şərəfi, incisi – adına ucalmasına bir mömin kimi köməkçi olaq.

Mömin qadının və kişinin bir günü o biri gününə bərabər deyil. Yəni hər gün dininə, əxlaqına faydalı olan yeni bir şey öyrənməsi, yeni bilik əldə etməsi insanın təfəkkürünün, düşüncəsinin təmizlənməsinə və daha doğru qərarlar verməsinə səbəb olur.

Dr. Zəkiyyə BABAYEVA

İNSANLARIN SAĞLIĞINDA DƏYƏRİNİ BİLƏK

Dünyamızın elə vaxtı-vədəsidir ki, dəyərlər, mənəviyyatlar, heysiyyətlər sanki geriyə yolu olmayan uçuruma itələnir. Sanki madiyyat sevgisi, lüks yaşam sevgisi vurub bütün gözəl hissləri sovurub dəli küləklər kimi insan qəlbindən. Sanki indi bir insan insanı dərdə-qəmə düçar etmək, bir insanı bu dünyaya gəldiyinə peşiman etmək, bir insanın səbr kasasını doldurub uçuruma sürükləmək, Allahın razı qalmadığı işlərə sövq etmək daha asan, daha cəlbedici olub.

Ətrafımızda baş verənlər, hər gün qarşımıza çıxan min bir fəsad, insanların dərk edərək və ya etməyərək həyata keçirdikləri əməllər və onların acı nəticələri dünyamızın, insanlığımızın hansı üzünə aiddir, görəsən?!

Bəzən həyat insanları ağlagəlməyən əməllərə sövq edir. Bəzən baş verənlər qarşısında sən heç bir şey edə bilməyəcəyini, nəticəni dəyişməyə gücün çatmayacağını anladığın üçün sadəcə müşahidəçi olmağa məcbur olursan. Bəzən ətrafda baş verənlər ya dərk olunmur, ya da bu belə olacaqmış dedirdəcək qədər sadə gəlir sənə.

Qələmə aldığım bu kiçik yazı bir insanın böyük bir faciəsinin təəssüratıdır. Bəlkə, kimsə qınayacaq onu, bəlkə, kimsə haqq verəcək. Amma bir şeyi unutmayaq ki, bu bir insan taleyidir, hamımızın məsulliyyət daşıdığı insan taleyi. Bu və bu kimi faciələrin baş verməsində mənim də, sənin də - hamımızın günahı var. Ətrafımıza, yaxınlığımızda olanlara diqqətli olaq, dinləməyi, dərdlərinə şərik olmağı, onlara dəyər verməyi bacaraq. Bəlkə, kimsə bizimlə münasibətdən, bizim isti təmasımızdan, təsəllimizdən, məsləhətimizdən sonra neçə-neçə səhvdən, baş verəcək yanlışlardan, facilərdən geriyə addım atacaq.

Əzizim Hicran! Eşitdim ki, bir qadın özünü dənizə atıb. Ancaq bunun sən olduğunu çox gec bildim. Sarsıldım bu xəbərdən. Bilirsən, gözümün önünə hansı dəniz gəldi? Onda biz tələbə idik. Sonuncu kursda oxuyurduq. O vaxt sahil bağı indiki kimi deyildi... Dərsimiz boş idi, bulvara getdik. Skamyalardan birində üzü dənizə oturmuşduq. Həmin gün həmin skamyada mənim dəftərimə bu söz-

ləri yazdın: "Zəkiyyə, biz indi dənizlə üzbəüz əyləşmişik. Sənin sözlərini dinləyəndən sonra istər-istəməz dənizə baxdım. Tələbəlik illərindən birdəfəlik ayrıldığımız bu günlərdə sənə mavi, şıltaq Xəzərimiz kimi ürəyi geniş, adi vaxtlarda sakit, bir haqsızlıq görəndə coşub kükrəyən, mərd, istiqanlı, təmiz, dənizdən daha duru olmağı arzulayıram. Zəkiyyə, səni dənizə oxşatmağım heç də təsadüfi deyil. Sənin onun arasında bir uyğunluq, oxşarlıq, uyarlıq görürəm. Bu isə az deyil. Bəlkə, sənin heç özünün də görüb duya bilmədiyin bir "romantika" adlı bir dünyan var. Sənin bu dünyandan səma qədər aydınlıq, tər çiçək kimi zəriflik ətri gəlir. Əgər sən indiyədək bu romantik dünyanı qoruyub saxlaya bilmisənsə, artıq həyatda çox şeyə nail olmusan. Mən sənin daxili aləminin təmizliyinə, lirikliyinə heyran olmuşam. İnanmışam ki, dünyada Zəkiyyə adlı bir qədər sərt təbiətli, lakin daxildə çox incə, təmiz, yumşaq ürəyə malik bir qız yaşayır. Zəkiyyə bunların hamısına görə sən ən əvvəl ana-atana borclusan. Ona görə də bu gün sənə olan arzularımı ilk növbədə onların ünvanına deyirəm. Qoy sən həmişə xoşbəxt, şən, mərd, bir sözlə, indiki kimi olasan. Ata-ananın istəyi necə istəyirsə, elə olasan. Mən sənə bunları arzu edirəm. Nə artıq, nə əskik. ***(Hicran. 26 May, 1987)***

Yaxşı sözlərinə görə çox sağ ol. Demə, sənin romantikan mənimkindən güclü imiş. Dəniz sənin sirdaşın, məsləhətçin imiş. Kaş o anda mən sənin arzuladığın dəniz olaydım. Sənin əsəblərini, gərginliyini yuyub təmizlər, səni sahilə atardım. Atardım ki, övladların üçün yaşayasan. Yaşayasan ki, hər şeyin aqibətini görəsən və öz kimliyini sübut edəsən. Haradan biləydim ki, heyranlıqla baxdığımız bu dəniz bir gün səni udacaq?!

Ətrafımızda baş verənlər, hər gün qarşımıza çıxan min bir fəsad, insanların dərk edərək və ya etməyərək həyata keçirdikləri əməllər və onların acı nəticələri dünyamızın, insanlığımızın hansı üzünə aiddir, görəsən?!

Səni universiteti bitirdikdən sonra bircə dəfə görmüşdüm. Dedin ki, orta məktəbdə müəllimə işləyirsən, qızın böyüyür. Hiss etdim ki, hər işin qaydasındadır. Başqa cür ola da bilməzdi. Səni əsl azərbaycanlı qızı, sədaqətli qadın, qayğıkeş ana kimi tanıyırdım, dəyərləndirirdim. Valideynlərinlə qiyabi tanış idim, həyat yoldaşını da görmüşdüm. Amma hər şey bir anda məhv olmuşdu sanki.

Sənin faciəndə özümü də günahkar bilirəm. Həyatın əzablı yollarında sənin dost köməyinə, dost təsəllisinə, dost məsləhətinə ehtiyacın var idi. Həmin anda sənin yanında olacaq, səni bu addımdan çəkindirəcək biri olmalıydı.

Bu xəbəri eşidəndən bəri nə vaxt dənizə baxıramsa, səni görürəm. Fakültəmizim müəllimləri ilə yas mərasimində iştirak edirdik. Küləkli bir gün idi. Bilirsən, dəniz necə idi? Rəngi az qala qaraya çalırdı. Dalğalar sahilin bəndlərini vurub keçmək istəyirdi. Sən düşdün yadımıza. Sənin tər-təmiz ürəyindən, ağlından, zəkandan, tərbiyəndən danışdıq. Sənə xoşbəxt axirət arzulamaqdan başqa əlimizdən nə gəlir ki...

AİLƏ MƏKTƏBİ

Xəyalə ABDULAZİM

DÜNYAMIZI BƏZƏYƏN ƏTİRLİ ÇİÇƏKLƏRİMİZ

Gecə yarı. Qaranlıq bir sükut. İsti yatağından telefon zənginin səsinə qalxan gənc bir adam. Dəstəyi narahat bir şəkildə əlinə alan gənc adam alo...

Ürkək bir səslə

- Oğlum...

- Ana, anacan, yoxsa, atama...?!

- Qorxma, oğlum, hər şey yaxşıdır, atan yanımdadır...

- Bəs, nə olub?

- Sadəcə səsini eşitmək istəyirdim.

- Necə, səsimi? Ana, bundan ötrümü gecənin bu saatını seçmisən?

Kövrək bir səslə:

- Bağışla, oğlum, narahat etdim.

Yarıda bölünmüş yuxunun gətirdiyi əsəbiliklə:

- Hə, narahat etdin, ana.

- Demək, narahat etdim. Bağışla, oğlum, sən də məni tam 30 il bundan əvvəl elə bu saatda Rəbbimin mənə lütf etdiyi ən gözəl narahatlıqla narahat etmişdin.

Rəbbim sizi var etdi.

Rəbbim sizi varlığından xəbərdar etdi.

Sonra nemətlərin ən gözəliylə ümməti Məhəmməd olaraq dünyaya gətirtdi.

Daha sonra Rəbbim sizə qadın olmağı ehsan etdi.

Və ən sonunda naxışların ən gözəliylə bəzədi qadınlığınızı.

Ana oldunuz.

Cənnətin ayaqları altına sərildiyi analıqla şərəfləndiniz.

Daha bədəninizə, canınıza, qanınıza, ruhunuza, qəlbinizə ilk qonaq olduğumuz gün xoşbəxtliyin ən yüksək zirvəsinə ucaldınız.

Hamiləyəm deyə, bütün dünyaya, bütün insanlığa, bütün məxluqata qucaq açdınız.

Doqquz ayı səbirsizliklə gözlədiniz. Nə çəkdiyiniz ağrılar gəldi fikrinizə, nə də ki, yatmadığınız narahat gecələr. Bəzən nəfəs belə almaqda çətinlik çəkdiyiniz anlar oldu. Gözlədiniz, xəyallara qanad açdınız, ilk paltarımızı aldınız, balaca corablarımızı, rəngbərəng önlüklərimizi, hətta adımızı belə əvvəlcədən fikirləşdiniz, salavatlarla oxşadınız, dualarla əzizlədiniz.

Dualarla, sevgiylə, diləklərlə günbə-

gün doğulacağımız günün xəyalıyla yaşadınız.

Doğulduğumuz gün bizi əlinizə alıb **–"sənin kimi gözəlini yaratmadı yaradan"** – dediniz. Bizi sevmək quş kimi uçurtdu sizi göylərə. Enə bilmədiniz yerə xöşbəxtlikdən.

Bizi bir an əlinizdən buraxmadınız, qəlbimiz atdı, qəlbiniz atdı. Qoydunuz bizi ürəyinizin başına. Qəlbinizin ən gözəl guşəsini bizə verdiniz. Sizə dünyanı unutdurduq. Bizimlə yeni bir dünya qurdunuz, bizimlə günəşi salamladınız, yeni bir günə salam dediniz. Bizimlə şirin yuxulara daldınız. Yuxusuz gecələr keçirdiniz. Bəsmələli səhərlər qarşıladınız. Yasinli südlər içirdiniz. Salavat qoxulu laylalar söylədiniz. Bizə rəbbimizin izniylə bütün ilkləri siz öyrətdiniz. Bizə yemək yeməyi, su içməyi öyrətdiniz....

Meyvələri daddırdınız. Tərəvəzləri yedirtdiniz.

Təmizlik imandandır deyərək, təmizliyə alışdırdınız, təmiz olaq deyə.

Saçlarımızı daradınız, baxımlı olaq deyə.

Dünyanı, çevrəmizi, ətrafımızı anlatdınız.

Buludlara uçuraraq göy üzüylə tanış olduq.

Addım-addım yeriməyi öyrətdiniz yer üzünü tanıdıq....

Rəbbimizin yaratdığı gözəllikləri göstərərək, neməti verəni tanıtdınız. Dənizə baxdıq, dənizlər qədər şükür etdik, hər azanla səccadələrə tələsdiniz, ibadətlərimizi gecikdirməyək deyə.

Yoxsula yardım etdiniz, sədəqə verək deyə.

Yetim başı oxşadınız kimsəsizlərə sahib çıxaq deyə.

Dua etdiniz, yaxşı insan olaq deyə.

Yaxşı və pisi anlatdınız səhvlərə yol verməyək deyə.

Bəzən incitdik, bəzən küsdürdük, bəzən sevindirdik, bəzən kövrəltdik sizi. Bir gülüşümüz, bir damla göz yaşımız hər şeyi unutdurdu, hər şeyi sizlərə. Yemədiniz yedirdiniz. Yuxusuz qalıb bizə keşik çəkdiniz. Xəstələndik kədərləndiniz.

Ana olmaq yuxusuz gecələr keçirtmək, ac qalıb doyurmaq, yuxusuz qalıb keşik çəkmək, qayğısına qalmaq, qorumaq, usanmadan sevgiylə, səbirlə, şəfqətlə, qucaqlamaq, öyrətmək, böyütmək və körpəsi üçün ilk yuva, ilk məktəb olmaqsa əgər, bəli, siz bir qadın olaraq ən gözəl bir peşənin sahibisiniz.

Mələk analar, nə yaxşı ki, varsınız. Dünyamızı bəzəyən ən ətirli çiçəksiniz.

Sadəcə bir gün deyil, ömrünüzün hər anının bayram olması diləyilə bu dəfəki yazımı dilindən, rəngindən, irqindən, miliyyətindən asılı olmayaraq, dünyanın bütün analarına, qocalar evində məskunlaşan analara və öz anama hədiyyə edirəm.

Ana olmaq yuxusuz gecələr keçirtmək, ac qalıb doyurmaq, yuxusuz qalıb keşik çəkmək, qayğısına qalmaq, qorumaq, usanmadan sevgiylə, səbirlə, şəfqətlə, qucaqlamaq, öyrətmək, böyütmək və körpəsi üçün ilk yuva, ilk məktəb olmaqsa əgər, bəli, siz bir qadın olaraq ən gözəl bir peşənin sahibisiniz.

Hatice ŞAHİN

AZƏRBAYCAN ÇİNARLARI

Bir gün Aristoteldən soruşurlar: **"Qadınlarda ən çox xoşunuza gələn nədir?"** Aristotel belə cavab verir: **"Utandıqları zaman üzlərində əmələ gələn qızartı".**

Görəsən, keçmiş zamanla müqayisədə indi nə dəyişdi ki, bir qadın həyasız şeyləri üzü qızardığında edə bilir? Təbii ki, Allah bu həya duyğusunu sadəcə qadına xas etməmişdir.

Kişi də bu dairənin içinə girir. Amma Peyğəmbərimiz (s.ə.s.):- "*Həya gözəldir, lakin qadında olarsa daha gözəl olar*",- **(Muxtarul Hədis)** buyuraraq, həya duyğusunu qadında zirvəyə qaldırmışdır. Çünki qadın yaradılışdan gözəldir və gözəl xüsusiyyətlər onun üzərində cəm olarsa, dəyəri daha çox ortaya çıxar.

Belə bir məsəl vardır: **"Ədəb qırıntıları qızıl qırıntılarından daha xeyirlidir".** Bu gün insanlar qızıl qırıntılarını toplamaq üçün həya duyğusunu tamamilə küçələrə atır. Bu duyğularını itirən insanlar, tamamilə canavarlaşır və gözlərimizə belə inanmayacağımız hadisələrə şahid oluruq.

Cəmiyyətdə həya duyğusunu nümayiş etdirən insanlar barmaqla sayılacaq qədər azalır. Cəmiyyət qəlbində həya duyğusu cücərtiləri qalmış insanları belə alçaldır. Reklamlardan başlayaraq xəbərləşmə vasitələrinə qədər hər şey həya duyğusunu təlqin edir. Belə bir cəmiyyətdə yetişən bir gəncdən Peyğəmbərimiz (s.ə.s.)in: *"Utanmadıqdan sonra istədiyini et!"* - hədisi ilə necə əməl etməsini istəyə bilərik.

Qəlblərin materialist duyğularla sıxıldığı bu dövrdə yaşayan canlı Quranlar insana fərahlıq verir. Cəmiyyəti qurtaracaq olanlar da onlardır və etina ilə yetişdirilən nəsillərdir. Həya duyğusunun azaldığı bir dövrdə inadına bu duyğu ilə yaşamağa səy göstərən çinarlardan birindən qələmimin deyil, klavyaturanın tuşlarına toxuna bildiyim qədər bəhs edəcəyəm.

Bunlardan biri oxumayazma bilmədiyi halda dinlədikləri sayəsində çox sevdiyi Peyğəmbərinin sünnəsini ən incə nöqtəsinə qədər yaşamağa səy göstərən və həya duyğusunun necə yaşamaq lazım gəldiyini bizə öyrədən bir çinar. Cəmiyyətin həyadan uzaq olduğu bir dövrdə evindən çölə çıxmaq istəməyən, yalnız xəstəxana kimi ehtiyaclarını qarşılamağa çıxan Bənövşə xalamız. Oğluyla birlikdə çölə çıxdıqda qadınların geyimlərindən və insanların həyasızlığından utanıb oğlunun üzünə baxa bilmədiyini söyləyən və başımıza bir fəlakət gələcək deyə qorxan iffət sahibi bir qul. Özü söyləyir: **"Yeddi oğlum var, bu günə qədər heç birinin yanında**

saçımı belə açmadım. Deməli, insanın imanı artdıqca həya duyğusu da artır".

Peyğəmbərimiz (s.ə.s.) yağış buludunu gördükdə qorxudan rəhmət tökülənə qədər: **"əzab buludu ola bilər"** - deyə rəngi saralar və titrəyərmiş. Xalamız da aləmlər sultanını bu günümüzdə yaşadan bir nümunəsi. Zaqatala (Əliabad) rayonu dağlıq bir bölgə olduğu üçün çox yağışlı bir bölgədir. Qara buludları, küləyin əsdiyini gördükdə qorxudan əsər və Allahın hüzuruna çıxaraq sakitləşər.

Problemi dövrümüzün maddiyyatçı cəmiyyəti kimi pul, maşın, ev və başqa maddi şeylər olmayıb. **"Uşaqlığım və gəncliyim kommunizm dövründə keçdi. O zamanlar İslam dinini bu cür rahatlıqla yaşaya bilmirdik. Quranı öyrənə bilmədim. Görəsən, Rəbbim məni belə bir qulluğa qəbul edərmi?"**- düşüncəsi ilə 9 övladını və 30-dan çox nəvəsini Quran öyrənməyə təşviq edərək özünü əfv etdirməyə çalışması ibrətamiz bir mənzərədir.

Zaqatalanın məhsuldar və comərd torpağını comərdliyi ilə qısqandıran Bənövşə xalam. Ümumiyyətlə, insanlar onu beşə ləqəbiylə tanıyırlar və saflığı ilə sevirlər. Gözü yaşlı, qəlbi sevdalı bu gözəl insan qəlbinin və evinin qapılarını Allah üçün hər məxluqata açar, xüsusilə də, qürbət ellərdəki anasız quşlara ana olur.

Tanıdığım digər çinarlardan biri də yetmiş yaşını haqlamış, əlində Quranıyla Allahın anıldığı hər yerə öncədən gedən Hürü xala. Quranı kommunizm dövründə öz səyi nəticəsində öyrənmişdir. Özündən dinləyək: *"Mənə qardaşım oğlu bir Quran kaseti, bir dənə də Quran əlifbası gətirdi. Mən axşamları yatmaz, kaseti dinləyər və izləyərdim. Belə öyrəndim Quranı"*. Bu gözəl insan 4 yetim övlad böyütmüş, gündüzləri də tarlada çalışmışdır. Yaşı artmasına baxmayaraq eynəksiz Quran oxuya bilirdi. *"Rəbbimdən istədiyim son nəfəsimə qədər gözümün nurunu almaması duasıdır. Gözümün nurunu almasın ki, mən Quranı oxuya bilim"*, -deyirdi.

Bu könlü, gözü yaşlı nənələri və onların yetişdirdiyi alınlarında səcdə izi olan nəsilləri gördükdə Rəbbimin nurunu tamamlayacağına imanımız bir qat daha artır. Azərbaycanda Sahilə xala, Afiqə xala, Tamara xala, Gözəl xala kimi daha neçə-neçə könül əhli insanlar var. Var olmağa davam edəcəklər inşallah.

Quran aşiqi çinarlardan biri də Ağdaş rayonunda Zenfira xaladır. Keçən il 75 yaşında Quran öyrənmək qismət oldu. Deməli, bir insan bir şeyi ürəkdən istəsə, Rəbbimiz gec də olsa nəsib edir.

Bu könlü, gözü yaşlı nənələri və onların yetişdirdiyi alınlarında səcdə izi olan nəsilləri gördükdə Rəbbimin nurunu tamamlayacağına imanımız bir qat daha artır.

Azərbaycanda Sahilə xala, Afiqə xala, Tamara xala, Gözəl xala kimi daha neçə-neçə könül əhli insanlar var. Var olmağa davam edəcəklər inşallah.

Şefika Kaya MERİC

Hz. Xədicə (r.a.)nın timsalında örnək xanım

Hz. Xədicə... Sədaqətin ən gözəl nümunəsi. Peyğəmbərimiz (s.ə.s.)in ilk göz ağrısı. Möminlərin anası. Rəsulullahın ən çətin anlarında yanında olan Hz. Xədicə. Kainatın əfəndisinin gözünün nuru Hz. Xədicə.

Görəsən, bütün aşiqlərin sevgiləri onun Allah Rəsuluna olan sevgisinin bir qırıntısı ola bilərmi?

Və bütün qəlblərdəki ilahi məhəbbət tərənnümləri Allahın onun qəlbinə qoyduğu Rəsulullah eşqinin bir parçası ola bilərmi?

O, müşriklərin yanında tək-tənha qaldığı anlarda sanki Rəsulullahı məhəbbət qanadlarının altına almış və: *"Qəm yemə, Allah sənindədir və hər zaman mən sənin yanındayam"*, - deyə biləcək qədər cəsur və sədaqət timsalıydı.

O, Rəsulullah üçün hüzur qaynağı idi. Hz. Xədicə kübar, bilikli və bir Peyğəmbər xanımı olmağa layiq olan bir insan idi.

Allah Rəsulu onu o qədər çox sevirdi ki, o, vəfat etdikdən sonra belə onun adına qonşularına hədiyyələr göndərir və digər xanımlarını qıscandıracaq dərəcədə ona olan sevgisini ifadə edərdi. Çünki Allah Rəsulu ilk evliliyə onunla addım atmışdı. İllərlə eyni evdə yaşamışdılar və sanki bir-biriləri ilə eyniləşmişdilər.

Peyğəmbərlik verilməyə başlandıqda da Hz. Xədicə onun yanında olmuşdu. Hira mağarasından qayıtdığı zaman qəbiləsi onu yalançı adlandırıb, falçılıqda ittiham etdikdə belə yanında olmuşdu. Hər məşəqqətli anında onun baş ucunda olmuşdu. O, Onu necə sevməməydi.

Peyğəmbər xanımı olmaq **"Xanım"**, ya da **"Ana"** olmağın ən yüksək dərəcəsi idi. Bütün möminlərin anası olmaq... Allahın: **"Həbibim"** –dediyi **"Ən Sevgilinin"** yoldaşı olmaq o qədər də asan deyildi. Bu, hər insana qismət olmamaqla bərabər, bir o qədər də məsuliyyətli idi. Peyğəmbər xanımı olmaq o məsuliyyəti daşıya biləcək gücə malik olmalı idi.

Allah (c.c.) Qurani Kərimdə buyurur: **"Ey Peyğəmbərin zövcələri! Sizdən hansı biriniz açıq-aşkar bir çirkin (günah) iş görsə, onun əzabı iki qat olar. Bu, Allah üçün asandır!" "Sizdən hər kim Allaha və Rəsuluna itaət edib yaxşı işlər görsə, onun mükafatını iki qat (başqa qadınların mükafatlarından iki dəfə artıq) verərik. Biz onun üçün (Cənnətdə) tükənməz (gözəl, minnətsiz) ruzi hazırlamışıq".(Əhzab 30, 31)**

Bu ilahi əmrlər eyni zamanda Peyğəmbərimizin bütün xanımlarına aid idi. Amma Peyğəmbər xanımlarına cəzanın da, mükafatın da iki qat veriləcəyi

ifadəsi onların daşıdıqları ağır məsuliyyətdən doğur. Yəni onlar nümunədir, ibrət alınandır, onlar simvoldur, onlar hər kəsdən fərqlənir və onlar Peyğəmbər xanımı adını daşıyanlardır.

Hz. Xədicə Peyğəmbərimiz (s.ə.s.)ə soyunun davam edəcəyi övladlar vermişdi. Başımızın tacı Hz. Fatimə anamız və onun övladları Hz. Həsənlə, Hz. Hüseyn Allah Rəsuluna Hz. Xədicənin yadigarı idi.

Allah Rəsulunun həyatı daim məşəqqətlərlə dolu idi. Onun çiyinlərindəki yük bir ümmətin yükü idi. Hz. Xədicə anamız onun bu ağır imtahanlarında hər zaman yanında olmuşdur və ona mənəvi dəstək göstərmişdir.

Hira mağarasından qayıtdıqda qorxuya düşərək başına gələnləri danışan Sevgili Peyğəmbərimizə: *"Heç qorxma!.. Allah səni heç bir vaxt çətin vəziyyətdə qoymaz. Allah mütləq sənə yardım edəcək. Çünki sən qohumlarına yardım edir, ailənə qayğı göstərirsən, həyatını halallıqla yaşayır, başqa insanları da doğru yola gətirməyə səy göstərirsən, yetimləri sığınacaq bir yerlə təmin edirsən, sözündə dürüstsən, əmanətə xəyanət etməzsən, dayağı olmayanlara arxa olan, ehtiyacı olanlara kömək etmək üçün çabalayan və hər kəslə yaxşı rəftar edən, nəzakətli davranan bir insansan"*,-deyən Hz. Xədicə anamızdı.

Peyğəmbərimizə vəhy gələndə fərqli hisslərə qapıldığını və narahat olduğunu görən Hz. Xədicə onu dövrünün elmli insanlarından sayılan əmisi oğlu Varakanın yanına apararaq onun təsəlli tapmasına səbəb olmuş və onun yanına gələnin **"Namusu Əkbər"** (Cəbrayıl ə.s.) olduğunu bildirmişdir. Hz. Xədicə də hər kəsdən əvvəl ona inanan insan olduğunu sübut edərək bu çətin anında da Allah Rəsulunun yanında olmuşdur.

Yenə Peyğəmbərimizin ilk vəhydən sonra yaşadığı **"Fətrət dövründə"** onu tək qoymamış və ideal qadın nümunəsini sərgiləmişdir.

Məkkəli müşriklər Haşimoğullarını 3 ilə yaxın boykot etdikdə Peyğəmbərimizlə bərabər çətinliklərə sinə gərmiş, imanı və sevgisiylə yoldaş olaraq dəstək olmuş, sıxıntılarına, kədərlərinə əlac olmağa çalışmışdır.

Peyğəmbərimiz (s.ə.s.) onun bu maddi və mənəvi dəstəyini belə təqdir etmişdir: *"Bütün insanlar məni rədd və inkar edərkən, o, mənə iman etdi. İnsanlar məni yalançı adlandırarkən, o, məni təsdiq etdi və insanların mənimlə bütün əlaqələrini kəsərək iqtisadi gərginlikdə sıxarkən, o, malını, mülkünü mənim üçün sərf etdi"*.

Bütün bunlar göstərir ki, Hz. Xədicə anamız Peyğəmbərimizin sadəcə xanımı deyil, eyni zamanda yaxın bir dostu, bir dərd ortağı, sıxıntılı anlarında onu təsəlli edən yoldaşı olmuşdur.

Qısaca, Hz. Xədicə anamızın timsalında ideal bir xanım nümunəsi görürük. Fədakar, cəfakar, sevgi dolu, şəfqətli, mərhəmətli...

Hz. Xədicə anamız Peyğəmbərimizin sadəcə xanımı deyil, eyni zamanda yaxın bir dostu, bir dərd ortağı, sıxıntılı anlarında onu təsəlli edən yoldaşı olmuşdur.

DUADAKI SİRR

Dua insanın kainatı yoxdan var edən və hər şeyə hökmü keçən Allah təalaya sığınması, Ona yalvarması, özünün acizlik və zəifliyini etiraf etməsidir.

İnsan oğlu həyatın enişli-yoxuşlu yollarında bəzən xoşuna gələn, bəzən də ona daxilən iztirab verən hadisələrlə qarşılaşar. Sevinc və səadət verən hallar onu minnət, şükür hisslərinə yönləndirdiyi kimi üzüntü, müsibət və kədər anları da ürək darlığı, könül yorğunluğu və yalnızlığa sövq edər.

Həyatın bu iki fərqli cəhəti imanda kamilləşmək üçün çalışan bəndələrin Allaha yaxınlaşmalarını asanlaşdıran bir təsir icra edər. Çünki bəndə xoşbəxtlik zamanlarında şükür edərək, müsibət və çətinlik zamanlarında da səbir və iltica edərək hər iki imtahanı da üz ağı ilə verər. Burada bəhs olunan şükrün də, ilticanın da təməli **"dua"**dır.

Dua insanın kainatı yoxdan var edən və hər şeyə hökmü keçən Allah təalaya sığınması, Ona yalvarması, özünün acizlik və zəifliyini etiraf etməsidir.

Həqiqətən kainatdakı bütün hadisələr Allah təalanın əzəli elmi ilə təqdir etdiyi bir qədərə bağlıdır. Onun elmi xaricində yaxşı-pis heç bir şey meydana gələ bilməyəcəyi kimi, heç bir güc Onun iradə və qüdrətinə rəğmən insanlar və hadisələr üzərində söz sahibi deyildir. Ona görə də bu böyük qüdrət qarşısında insan oğlu sadəcə acizlik və qulluq səviyyəsindədir.

Bu acizlik və qulluğun ən gözəl ifadəsi

duadır. Çünki dua; təkəbbür, lovğalıq (özünü bəyənmək) və özündən razılığı Haqqın qapısında tərk etməkdir. İnsanın öz həddini bilməsi, acizliyini və faniliyini etiraf etməsidir.

Dua dinin əsli, ibadətin ruhu və əsasıdır. Bu xüsusda Əziz Peyğəmbərimiz:

"Dua ibadətin əsasıdır",- buyurmuş sonra da: "**Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi (dua etməyi) təkəbbürlərinə sığışdırmayanlar cəhənnəmə zəlil olaraq girəcəklər!" (Mömin, 60)** məalındakı ayəni oxumuşdur. **(Əbu Davud Vitr, 23/1479; Tirmizi, Təfsir, 40/3247)**

Həmçinin hədisi-şəriflərdə belə buyurulur:

"Allah dərgahında duadan daha qiymətli bir şey yoxdur". (Tirmizi, Dəavat, 1/3370)

"Dua ibadətin əsasıdır". (Tirmizi Dəavat, 1/3371)

"Kimə dua qapısı açılarsa ona rəhmət qapıları açılar. Allahın ən çox sevdiyi şey Ondan sağlıq və səhhət istənilməsidir. Dua enən və enməyən (bəlalara qarşı) faydalı olur. Ona görə də, ey Allahın bəndələri duaya sarılın". (Tirmizi, Dəavat, 101/3548)

"Günah, yaxud qohumlardan əlaqəni kəsmək (kimi günah şeylər) istənmədikcə Allah dua edənə istədiyini verər və ya onun (duası) qədər bir bəlanı ondan dəf edər". (Tirmizi, Dəavat, 9/3381)

"Sizi düşmənlərinizdən qoruyacaq və ruzinizi çoxaldacaq bir şey bildirimmi? Gecənizdə və gündüzünüzdə Allaha dua edərsiniz. Çünki dua möminin silahıdır". (Heysəmi, Məcma` X, 147)

"Qəzanı, ancaq dua geri çevirər, ömrü də ancaq yaxşılıq uzadar". (Tirmizi, Qədər, 6; İbn-Macə, Müqəddimə, 10; Əhməd, II, 316, 350; V, 277, 280)

Çünki duada acizlik, bəndəlik, təvazökarlıq, təslimiyyət, tövbə, etiraf, boyun əymək, həmd, təsbih, tövhid, təkbir, itaət və bənzəri bir çox cismani və qəlbi ibadət gizlidir. Dua qəlbdə Allaha açılan ən uca qapının açarıdır.

Digər tərəfdən Allah təala:

"Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!" (Mömin, 60)- buyurur.

Bu səbəblə insanlığa rəhmət olaraq göndərilən bütün peyğəmbərlər və Haqq dostları istər çətinlikdə və rahatlıqda, istərsə də iztirablı və sevincli anlarda qəlblərini daim Haqq təalaya çevirmişlər və bir niyaz iqlimində yaşamışlar. Onların bu dua və niyaza həsr edilən ömürləri bir möminin ruhunda dua halının necə davamlı olaraq qalacağını göstərir.

Dua təkrarlandıqca dərin hisslərlə möminin ruhuna nəqş olunur, şəxsiyyətinə qarışıb onun bir xüsusiyyəti halına gəlir. Bu səbəblə də yüksək ruhlar hər zaman dua halında yaşayarlar. Həmçinin onların qəlbləri duaya sarılmağın əhəmiyyətinə aid bu ayeyi-kərimədəki ilahi xəbərdarlıq ilə ürpərti halındadır:

Haqq təala buyurur:

(Ya Rəsulum) de: "Əgər ibadətiniz, dua və yalvarmanız olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar?" (əl-Furqan, 77)

Bir möminin ruhunda Allaha dua ilə yalvarma duyğularının daimi hala gəlməsi Allah ilə bəndə arasında mənəvi

bir əlaqə yaradar. Vəcd halındakı dualar isə qəlbin ilahi rəhmətlə qovuşma anlarıdır.

Haqq təalaya əllərini açan bir insan ya umduğu şeylərə nail olmaq, ya da qorxduqlarından əmin olmaq istəyər. İdrak, elm, güc və qabiliyyətləri məhdud olan insanın; ehtiyac, istək, həvəs və arzuları bitmək bilmədiyi üçün hər şeyə sahib olan bir hökmdarın (Allahın) qapısına müraciət etmək lazımdır. Hər qapıdan edilən tələbin bir şəkli və qaydası olduğu kimi Allaha dua və niyaz etməyin də bir ədəbi vardır.

Dua sonsuz qüdrət sahibi Allah təalaya acizliyimizi idrak edərək yönəlib Onun hüzurunda təslimiyyət və sükunətlə baş əyməyimizdir. Ona görə duaya acizlik və qüsurunu etirafla başlamaq ilahi mərhəmətin cəlb edilməsində və duanın qəbul olunmasında böyük bir təsirə malikdir.

Dua sonsuz qüdrət sahibi Allah təalaya acizliyimizi idrak edərək yönəlib Onun hüzurunda təslimiyyət və sükunətlə baş əyməyimizdir.

Özünü günahsız zənn edən təkəbbürlü insanların deyil, günahlarının bağışlanması üçün gözlərindən qəlblərinə daim yaş axıdan Haqq aşiqlərinin duaları daha çox qəbul edilməyə layiqdir. Bu hal ayeyi-kərimədə belə təsvir edilir:

"Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz!" (əl-Əraf 55)

Həzrət Adəm ilə Həvva (ə.s.)da məlum zəlləni işlədiklərində Haqq təalaya belə iltica etmişdilər:

"(Adəm və Həvva) "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!"- dedilər." (əl-Əraf, 23)

Duanı bizə yaşayışı ilə ən gözəl şəkildə öyrədən Hz. Peyğəmbərimiz (s.ə.s.)dir. O, göz yaşları içində və ayaqları şişincəyə qədər qıldığı namazlara əlavə olaraq etdiyi dualarda tez-tez:

"Allahım! Sənin qəzəbindən rizana, əzabından əfvinə və Səndən yenə Sənə sığınıram! Səni layiq olduğun şəkildə mədhü-səna etməkdən acizəm! Sən özünü necə mədhü-səna etmisənsə eləsən!" (Müslim, Salət, 222) deyərək acizlik duyğuları içində Allah təalaya iltica (dua) edərdi.

Duaları **"xovf və rəca"**, yəni qorxu və ümid arasında etməyə çalışmaq lazımdır. İnsanın axirətdəki səadət və ya fəlakəti ancaq iman və ya küfr səbəbi ilədir. Bunların hər ikisi də ilahi təqdirə aid olması və qədərin bilinməməsi səbəbilə peyğəmbərlərdən başqa heç bir insan zəmanət altında deyildir. İnsanlar, sanki həm cənnətə girəcək son insanın özü olacağına ümidli olmalı, həm də cəhənnəmə girəcək tək insanın özü olacağına da içində qorxu hissi olmalıdır. Bu aşırı ümid və aşırı qorxu arasında mötədil bir yoldur.

Duanın daşıdığı mənaya qəlb biganə qalmamalıdır. Əgər bir günahın etirafı və tövbəsi tələb edilirsə, bu dua həmin günahın bir daha işlənməməsi xüsusunda dərin bir peşmanlıq və qəti bir əzmkarlıqla edilməlidir.

Bundan başqa bir din qardaşının arxa-

sında edilən dua da dərhal qəbul olunar. Peyğəmbərimiz (s.ə.s.):

"Bir möminin digər bir möminə arxasında etdiyi duadan daha tez qəbul olunan heç bir dua yoxdur",- buyurmuşdur. (Tirmizi, Birr, 50)

İnsanlar duasının qəbul ediləcəyini zənn etdikləri kimsələrdən dua tələb edirlər. Halbuki, duanın qəbul edilməsinin əsl səbəbi ixlas və səmimiyyətdir. Bu da o deməkdir ki, bir günahkarın belə mömin qardaşı üçün edəcəyi səmimi və ürəkdən bir dua, Allah dərgahındakı məqamının şəxsindən üstün zənn edilən başqa birinin könülsüz etdiyi duasından daha xeyirlidir.

Bir bəndə günahkar olsa belə, bu hal onu Allah təalanın tərk etdiyi mənasına gəlməz. Bu səbəblə bir şəxsin kimin duası hörmətinə muradına çatacağını yalnız Allah təala bilir.

Onun üçün kim olursa olsun Allahın bəndələrindən birinin səmimi dualarını ala bilməkdəki dəyəri idrak etməlidir.

Məzlum və qəlbi qırıq möminlərin duasını almaq qədər, onların bəddualarından qorunmaq da eyni dərəcədə mühümdür.

Həmçinin dualarda ilahi lütfə nail edəcək olan sadəcə gur səslə və göstəriş ədası ilə söylənən, riyakarca, qurama və qəlbin iştirak etmədiyi pafoslu cümlələr, ciyərləri parçalayacaq dərəcədə yüksək səslər və göstərişli sözlər deyildir. Əgər belə olsaydı bütün bunların əksinə iniltidən səsi çıxmayan, qanlı göz yaşları ilə yalvaran iztirablı bir xəstənin və ya öz nəfsinə sözü keçməyəcək qədər zəif olan qəriblərin dualarının qəbul edilməməsi lazım idi. Bunun əksinə bir düşüncəyə sahib olmaq isə, qəlb və hal dilini bilməmək və onu sanki yox zənn etməkdir.

Əslində, duada bu kimi həddi aşmalar, duanın özünü, ruhaniyyətini və səmimiyyətini zəiflədir. Hz. Peyğəmbər (s.ə.s.) belə dua edənlər haqqında:

"Bir zümrə gəlib dualarda həddi aşacaqdır..." (Əbu Davud, Vitr, 23) buyuraraq ümmətinin bu hala düşməməsi üçün xəbərdarlıq etmişdir.

Allah təala səmimi duaları rədd etməz. Lakin bütün səmimiyyətinə rəğmən qədəri-mütləqə uyğun olmayan bəzi tələbləri də qəbul etməz. Buna görə dua edən, heç vaxt bezginlik göstərməyib duaya davam etməlidir. Çünki belə hallarda duanın qarşılığı axirət aləminə həvalə edilmiş deməkdir.

Allah təala səmimi duaları rədd etməz. Lakin bütün səmimiyyətinə rəğmən qədəri-mütləqə uyğun olmayan bəzi tələbləri də qəbul etməz. Buna görə dua edən, heç vaxt bezginlik göstərməyib duaya davam etməlidir.

Bir insan düşündüyü və ona görə məqbul olan bir şeyi istədiyi zaman onun özü haqqında xeyir və ya şər olacağı xüsusunda səhv edə bilər. Çünki bəzi şeylərdə zahir lütf, batin qəhr ola bilir. Məsələn, Allahın bir insana övlad verməsi ilk nəzərdə böyük bir lütfdür. Pul və vəzifə də belədir. Lakin bunların nəticədə bir şərə və ya bir ərəbə hər zaman dönmə ehtimalı vardır. Pul, mal və vəzifədə azğınlıq təccəlli edə bilər.

Məsələn: Övlad ziyankar ola bilər.

Ona görə dua edən bir bəndəyə yaraşan, işlərin xeyirlisini Allah təalaya həvalə etməkdir. Beləcə bəndə Haqq təaladan bir tələbi olduğunda:

"Ya Rəbb, haqqımda xeyirlisini lütf et!" deyə dua etməli və Allah təaladan hər şeyin xeyirlisini istəməlidir. Əks təqdirdə bəzən hiss etmədən öz fəlakətini istəmiş ola bilər.

Bundan başqa insanların söz, qəlb və zehndən keçirdiyi hiss və düşüncələr də bir təmənni və nəticə olaraq dua məqamındadır. Allah təala qəlblərə baxar. Yəni qəlblər daimi olaraq ilahi müraqəbə altındadır. Yəni, sanki ilahi kamera qarşısındadır. Qəlbdən keçən hisslər bir dua və təmənni olduğuma görə və buna nəzarətin də çox çətin olduğu üçün, bizə, xoş düşüncəli olmaq, hüsnü-zənn və təmənnilər içində olmaq əmr edilmişdir. Bir hədisi-şərifdə:

"Sui-zəndən çəkinin. Çünki sui-zənn sözlərin ən yalan olanıdır. Başqalarının danışdıqlarını dinləməyin, eyiblərini araşdırmayın, bir-birinizə qarşı təkəbbürlənib öyünməyin, bir-birinizə həsəd etməyin, kin tutmayın, üz çevirməyin. Ey Allahın bəndələri! Allahın sizə əmr etdiyi kimi qardaş olun..." -(Müslim, Birr, 28-34) buyurulmuşdur.

Digər bir hədisi-şərifdə isə Allah Rəsulu (s.ə.s.):

"Hüsnü-zənn imanın gərəyidir (tələbidir)." (Əbu Davud, Cənaiz 13, Ədəb, 81)

"Biz, mömin haqqında yalnız hüsnü-zənn edirik." (İbn Macə, Fitən, 2) -buyurmuşdur:

Abdullah bin Məsud (r.a.)dan rəvayət edildiyinə görə Rəsulullah (s.ə.s.) belə buyurmuş*dur:*

"Əshabımdan heç kim başqa biri haqqında xoşlanmayacağım bir şeyi mənə söyləməsin. Çünki mən sizin qarşınıza könül xoşluğu ilə çıxmaq istəyirəm". (Əbu Davud, Ədəb, 28/4860; Tirmizi, Mənakib, 63)

Rəsulullah (s.ə.s.) belə buyurmuşdur:

"Allah təala belə buyurur: Mən bəndəmin zənni üzrəyəm (Məni düşündüyü kimiyəm)"

Bu hədisi-şəriflərin işığında duanın qövli (sözlü) olanlarında da, hissən və fikrən edilənlərində də mənfiliklərdən uzaq olmağımız başa düşülür. Məsələn, bir qadın övladına hirsləndiyi bir anda -bəlkə də ürəkdən qəsd etməyərək:

"Allah canını alsaydı qurtulardım!",- deyir. Bu söz yeri gələndə dua və ya Allahdan təmənni məqamına yaxın olar və eynilə qəbul olunar.

Bir nəfər Abdullah bin Mübarək həzrətlərinin yanına gələrək ona uşağının asiliyindən şikayət etdi. Abdullah bin Mübarək:

"–Övladına bəddua etdinmi?"-deyə soruşdu. Həmin şəxs:

"–Bəli",- cavabını verdi. Bunun üzərinə Abdullah bin Mübarək:

"–Uşağın pozulmasına sən özün səbəb olmusan!"- dedi.

Bir səfər əsnasında Peyğəmbərimiz ənsardan bir qadının yüksək səslə də-

vəsinə lənət etdiyini gördü. Əshabına:

"–Dəvənin üstündəki əşyaları alın və dəvəni sərbəst buraxın. Çünki o, artıq lənətlənmişdir",- buyurdu.

Hədisi rəvayət edən İmran bin Husayn (r.a.) deyir ki:

"–O dəvəni insanlar arasında öz halında gəzərkən görürdüm, heç kim ona toxunmurdu". (Müslim, Birr, 80; Əbu Davud, Cihad, 55)

İnsan duanın bu və bənzəri ədəbinə riayət etmədiyi zamanlarda istədiyinə nail olmadığı kimi, bəzən daha pis nəticələrlə də qarşılaşa bilir. Hz. Mövlana Məsnəvisində Peyğəmbərimizlə əshabdan yalnış dua edən birinin arasında keçən bu hadisəni qəlb lisanı ilə belə şərh edir:



Əshabi-kiramdan bir nəfər ağır şəkildə xəstələnmişdi. Demək olar ki, zəifləyib quru bir qəfəsi qalmışdı.

Peyğəmbərimiz (s.ə.s.) xəstə yoxlamaq, hal-xətrini soruşmaq üçün yanına getdi. Peyğəmbərimizin xasiyyəti onsuz da tamamilə lütf və kərəmdən ibarət idi.

Peyğəmbərimiz xəstəni görüncə halını soruşdu, o xəstəyə xoş sözlər dedi.

Xəstə Hz. Peyğəmbəri görüncə dirildi. Sanki Allah onu həmin anda yaratmış kimi oldu və sevincindən:

"–Xəstəliyin mənə verdiyi bəxtə bax ki, peyğəmbərlərin sultanı səhər vaxtı mənim yanıma gəldi. Bu xoşbəxt xəstəlik; nə uğurlu ağrı, sancı və hərarət; nə xoşbəxt dərd... Haqq təala mənə bu qoca yaşımda lütf və kərəmi ilə belə bir xəstəlik verdi, məni belə bir dərdə düşürdü... Hər gecə yarısı məcbur qalaraq qalxım deyə mənə bel ağrısı verdi. Bütün gecə heyvan kimi yatmamağım üçün lütfündən kərəmindən mənə dərdlər bağışladı, kədərlər ehsan etdi. Mənim xəstə olmağımdan, təpədən dırnağa hər yerimin ağrımasından, fəryad eməyimdən Rəbbimin mərhəməti coşdu və acılar, iztirablar cəhənnəmin məni qorxutmadan susdurdu",- dedi.

Peyğəmbərimiz xəstənin vəziyyətini soruşdu. Sonra ona dedi ki:

"–Sən uyğun olmayan və yersiz bir duanı etmisən? Bilməyərək zəhərli nə isə yemisən? Bir düşün görək; necə dua etmisən? Nəfsin hiyləsinə aldanıb niyə özündən çıxmısan? Allahdan nələr istəmisən?"

Xəstə:

"–Heç xatırlamıram, amma dua edin indi xatırlayım!.." - dedi.

Mustafa (s.ə.s.)in nur saçan hüzuru bərəkəti ilə xəstə etdiyi duanı xatırladı. Hər tərəfi aydınladan Peyğəmbərin duası ona unutduğunu xatırlatdı.

"–Ya Rəsulallah! Allah təalaya etdiyim nalayiq duanı indi xatırladım. Bir çox günaha girmişdim; günah dalğaları arasında üzürdüm. Günahkarlara və günah işləyənlərə çox çətin, çox şiddətli əzab olunacağını eşidirdim. Quş kimi çırpınaçırpına qalmışdım və başqa çarəm yox idi. Axirət bağı çox möhkəm idi. Ümid və təsəlli qıfılı da açılmırdı. Axirətin əziyyətinə, əzabına ölçü və hüdud yoxdur, anladılması mümkün deyil. Ona qarşılıq bu dünyada çəkilən zəhmətlər, məşəqqətlər dəyərsizdir. Nə xoşbəxtdir o kimsə

ki, nəfs ilə savaşır, bədəninə zəhmətlər verir, çətinliklər çəkdirir və onu tərbiyə etməyə çalışır, ədalətli davranır. Axirətin zəhmətindən qurtulmaq üçün bu dünyada özünə zəhmət verməyi, əziyyət çəkdirməyi qulluq və ibadət yerinə qoyar. Mən də: "Ya Rəbb!" deyirdim. "Axirətdə çəkdirəcəyin əzabı bu dünyada mənə çəkdir! Çəkdir ki, axirətdə xoşbəxt olum!" Bu istəklə ilahi qapıya yönələrdim. Elə bu anda məndə belə bir xəstəlik meydana gəldi. Xəstəliyin verdiyi əziyyətdən canımın rahatlığı qalmadı. Zikrimdən, ibadətlərimdən geri qaldım. Hətta özümü, yaxşılığımı və pisliyimi bilməz bir hala gəldim. Ey mübarək və əziz Peyğəmbər! Sənin o nurlu üzünü görməsəydim bu həyatdan tamamilə qurtulacaq, yəni ölüb gedəcəkdim. Mənə dua və təsəlli edərək məni şərəfləndirin."

Əziz Peyğəmbərimiz buyurdu ki:

"–Bir daha bu duanı etmə; öz həyat ağacını kökündən çıxarıb atma! Ey zəif və qarışqa qədər zəif insan! Sənin nə gücün var ki, tutub dağ boyda, qaldıra bilməyəcəyin bir xəstəliyin yükünü sənə yükləsin?"

Xəstə:

"–Tövbə etdim, ey mənim mərhəmət sahibi uca Rəbbim, bir daha özümü güclü-qüvvətli zənn edərək belə bir söz deməərəm. Halımı da, rəzil-rüsvay olduğumu da gördün! Məni bundan artıq imtahan etmə... Ey bütün bəndələri tərəfindən yardımı istənilən kərəm sahibi, ehsan sahibi Allah! Bizi ağır imtahanlara çəkmə! Hələ gizli olan günahlarımızı, pisliklərimizi gizlə, açığa çıxartma. Allahım! Sən gözəllikdə və kamillikdə sonsuzsan; biz isə əyrilikdə, azğınlıqda həddimizi çox aşmışıq. Ey kərəm sahibi! Bu bir ovuc nankor insanın əyriliklərini, günahlarını sonsuz lütfünlə, ehsanınla ört! Ət və yağdan ibarət olan bədənə mərhəmət edən, acıma duyğusu verən Allah! Yaratdığın varlıqlarda sənətini, yaratma gücünü, qüvvətini göstərdin; lütf və mərhəmətini də göstər! Ey böyüklərin ən böyüyü olan Allah! Etdiyimiz bu dua sənin qəzəbini artırırsa, ediləcək duanı yenə Sən bizə ilham eylə!"

Sonunda Həzrət Peyğəmbər həmin xəstəyə buyurdu ki:

"–Sübhanallah, Allahın verdiyi əzaba dözə bilməzsən. Sən:

"Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru!" (əl-Bəqərə, 201) deyə dua etsən olmazdımı?" **(Bax. Müslim, Zikr, 23/2688; Tirmizi, Dəavat, 71/3487)**

Ya Rəbb! Biz Həbibi-Ədibin Məhəmməd Mustafa -səlləllahu əleyhi və səlləm-in səndən istədiyi hər şeyi istəyir və sənə sığındığı hər şeydən biz də Sənə sığınırıq. Ya Rəbb!.. Bizi seçdiyin, sevdiyin, maddi-mənəvi ehsanlar etdiyin nemət əhlinin yolundan ayırma!.. Bizi yalnız Səni bilən, Sənə əl açan, Səndən yardım gözləyən həqiqi mömin bəndələrindən et!.. Bizim xeyirli dualarımızı mərhəmət və lütfünlə qəbul et!.. Bizə dünyada da yaxşılıq və gözəllik ehsan et, axirətdə də!.. Bizi cəhənnəm əzabından qoru!..

Amin!.

Xanım HƏMZƏYEVA

İTİRDİYİMİZ İMAN HƏYƏCANI

Bir meyvədə çürük olsa, kəsib atmasaq tədricən bütün meyvəni çürüdər. Vücudumuzda yara olsa, sağaltmasaq, zamanla vücudu bürüyər. Günahlar da belədir. Tövbəylə silməsək, zamanla bizi məhv edər.

İman neməti hər kəsə nəsib olmur. Rəbbimiz bu neməti bizlərə verməklə bizi seçmişdir. Əsas məsələ seçilmiş adına layiq olmaqdır. Çoxumuz bu yola gəldiyimizdəki o ilk həyəcanı hiss edə bilmirik və cavabını axtarırıq. Aşağıda bəzi maddələr sıralayaq, bəlkə, cavab onların birindədir.



1) Rəbbimiz o ilk həyəcanı bir müddət sonra əlimizdən alır ki, görəsən o, ilk həyəcan üçün darıxacaqmı?

2) Bu yola gəldikdə din haqqında məlumatımız az idi. Halal və haramlardan o qədər də xəbərimiz yox idi. Ona görə də bizə elə gəlirdi ki, dini ən gözəl şəkildə yaşayırıq.

3) Ətrafımızda nəfsi cəlb edəcək şeylər çoxdur.

4) Layiqli şəkildə Rəbbimizə qulluq etmədiyimiz üçün O, ibadətlərin ləzzətini əlimizdən almışdır.

5) Ya da hər vəziyyətimizdə *"Allahdan razıyam"* deyə bilmirik.

İmanın tərifi inanmağın içində gizli olan təvəkkül və təslimiyyətdir. Bunlar fəaliyyətə keçmədikcə, sadəcə *"inandım"* demək kifayət deyil.

Dərman reklamı vardı. Hafizəni gücləndirir, stressi, yorğunluğu aradan qaldırır. Təbii ki, xəstə olduğumuz zaman dərman qəbul etməliyik. Lakin bununla yanaşı, hətta ən başda içimizdəki riza halıdır.

Sağlam ibadət üçün sağlam həyat tərzi lazımdır. Çoxumuz: *"Maddiyyat yoxdursa, sağlamlıq nəyimə lazımdır"*,- deyirik. Müəyyən qədər haqlıyıq. Bir hadisə danışım:

Bir nəfər kasıb olur. Dua edir ki, xəstə olsam da, zəngin olum. Duası qəbul olur. Zaman keçir, çox varlanır. Bir gün çox pis xəstəliyə düçar olur və indi var dövlətdən daha çox sağalmaq istəyir. Amma artıq gec idi.

Əlimizdə olan nemətlərin qədrini, qiymətini ya o nemət əldən getdikdə, ya da müqayisə etməklə başa düşürük.

- Lüks şərait istədikdə, evi olmayanlara baxaq.
- Sağlamlığın qədrini bilmiriksə, ayağı, gözü olmayanlara baxaq və öz işlərimizi özümüz edə bildiyimizə görə şükür edək.

Nailə SÜLEYMANOVA

XINALIQ- BİZİM CANLI TARİXİMİZ

Azərbaycan dünyanın qədim və zəngin tarixə malik olan ölkələrindən biridir. Ta qədimdən bəri Azərbaycanda müxtəlif dillərdə danışan tayfalar yaşayırdı. Bir çox tarixçilər əsərlərində Qafqaz Sıra Dağlarının ətrafında müxtəlif dildə danışan tayfaların yaşadığı haqqında məlumat vermişlər. Hal-hazırda da Azərbaycanda azərbaycanlılardan başqa hanut, buduq, tat, talış, dağ yahudiləri, albanlar, xınalıq və başqa tayfaların nümayəndələri yaşayır. Bunların bir çoxu hətta öz dillərini mühafizə edə bilmişlər. Quba rayonunun mərkəzindən 60 km cənubi-qərbdə, Şahdağın şimal ətəklərində, uca bir təpənin başında yerləşən Xınalıq kəndi Azərbaycanın tarix və etnoqrafiyasının zəngin olduğu, dünya əhəmiyyətli orta əsr abidəsidir. Tarixi mənbələrdə Xınalığın erkən orta əsrlərdə, miladdan əvvəl IV əsrdə buraya gələn hunlar tərəfindən salındığı güman edilir. Xınalığın memarlığı əsasən dağ kəndləri üçün səciyyəvi üslubda planlaşdırılmışdır. Bir evin damı o birisi üçün həyət kimi istifadə olunur. Azərbaycanın dağlıq bölgələrində əsas inşaat materialı çaydaşı və çox bərk olan, çətin emal edilən "salqaya" adlanan qaya suxurları qırıntılarıdır. Xınalıqda isə evlər kvadrat planlı olub, düzgün forması olmayan salqaya daşlarından tikilmişdir. Əhali şərti olaraq Dağıstan dilləri qrupuna aid edilən xınalıq dilində danışsalar da, ədəbi dilləri Azərbaycan dilidir. Xınalıqda dağ çəmənlərinin çoxluğu maldarlığın inkişafı üçün əlverişli şərait yaratmışdır. Odur ki, əhali daha çox qoyunçuluqla məşğuldur. Bu isə öz növbəsində Xınalıqda qoyun yunu ilə bədii əl sənətlərinin zəngin növlərindən biri olan xalçaçılığın yaranmasına səbəb olmuşdur. Xınalığın qadın əhalisi əsasən yundan xalça, kilim, palaz, şal, corab kimi müxtəlif kompozisiyalara, bəzəklərə malik olan məmulatlar hazırlayırlar. Toxuculuqda Xınalıqda bitən otlardan alınma təbii boyalardan istifadə edilir. Xınalıq kəndinin məişət xüsusiyyətləri, estetik

zövqü, bir sözlə siması məhz toxuculuqda özünü biruzə verir. Azərbaycan toxuculuğunun bir çox gözəl nümunələrinə Xınalıqda rast gəlmək olar. Xalçaların harada və hansı məqsəd üçün istifadə ediləcəyindən asılı olaraq onun ölçüsü, bəzəkləri, rəngi müxtəlifdir. Xınalıqda xalçalar cürbəcürdür. Namazlıq xalça, divar xalçaları, yer xalçaları.

Xınalıqda orta əsrlərə aid edilən Xıdır Nəbi türbəsi, Pir Comərd və indi də fəaliyyətdə olan Əbu Müslüm, Şeyx Şabluz, Cümə məscidləri vardır. İncəsənət nümunələri ilə yanaşı Xınalıqda həm elmi, həm də tarixi dəyəri olan sərvətlə Xınalığın əlyazmaları da vardır.

Xınalıqda mövcud olan coxsaylı əlyazmalar təsərrüfat işləri zamanı qəbirlərdən aşkar olunan orta əsrlərə aid gil qab, səhəng, müncuq və digər eskponatlarla yanaşı **"Xınalıq Tarix və Etnoqrafiya"** muzeyinə toplanmışdır. Bu günümüzlə əlaqəsi kəsilmiş bu əlyazmaların çoxunun qismən, digər hissəsinin tamamilə dağılmasına baxmayaraq, onlar xalqımızın mədəniyyətini öyrənməyə imkan verən qiymətli mənbələrdir. Bu əlyazmalar arasında Quran və başqa dini məzmunlu kitablarla yanaşı, təbiət, tarixə dair əsərlərin əlyazmalarına rast gəldik. Bu əlyazma nüsxələri əsasən elm xadimləri və ya tələbələr üçün nəzərdə tutulan sadə nüsxələrdir. Sifarişlə yazılan təmtəraqlı əlyazmalardan isə ancaq Qurani-Kərim cüzlərini qeyd etmək olar. Qurani-Kərim cüzləri gözəl nəsx xətti ilə yazılıb, səhifələri naxışlarla bəzədilmişdir.

Hər bir mədəniyyətdə mənsub olduğu millətin ruhu, qabiliyyəti, iradəsi və milli xasiyyəti ifadə olunur. Bir sözlə, mədəniyyət onu yaratmış millətə məxsusdur. Elmi yaşadan və gözəl əl sənətlərinin nümunələrindən biri olan Xınalığın əlyazmaları məhz Bizim mədəniyyətimizin bir hissəsidir. Dörd divar arasında qalan bu əlyazmalara həyat qazandırmaq üçün onları tez bir zamanda tədqiqatçılara çatdırmaq lazımdır. Çünki onların tarix və bir xatirəyə çevrildiyi vaxt hesabı bizdən sorulacaq....

AME Əlyazmalar İnstitutu
İlahiyyat elmləri namizədi

Hər bir mədəniyyətdə mənsub olduğu millətin ruhu, qabiliyyəti, iradəsi və milli xasiyyəti ifadə olunur. Bir sözlə, mədəniyyət onu yaratmış millətə məxsusdur. Elmi yaşadan və gözəl əl sənətlərinin nümunələrindən biri olan Xınalığın əlyazmaları məhz Bizim mədəniyyətimizin bir hissəsidir.

Mətanət KƏRİMOVA

PEYĞƏMBƏR ƏXLAQI

Səbir, qənaət, alicənablıq, təvazökarlıq, fədakarlıq, cəsarət kimi bəzi gözəl xislətlər vardır ki, hər insan onlara sahib olub, yaşamaq istəyər. Çünki bunlar və bunlara bənzər gözəl xüsusiyyətlər, insana həqiqətən "**insan**" olma xüsusiyyəti qazandırır.

"Gözəl əxlaq" adı altında toplanan bu vəsflərin ən gözəl nümunələrini Hz. Peyğəmbər (s.ə.s.)in həyatında görmək mümkündür. Onun əxlaqı o qədər ucadır ki, Allahu Təala **"Allahın Rəsulunda sizin üçün gözəl bir örnək vardır" (Əhzab, 21)** buyuraraq, möminlərin, həyatlarının bütün istiqamətlərində onu nümunə götürməyi tövsiyə və əmr edir. Çünki onun əxlaqı bizlər üçün ən gözəl ibrət, onun yaşayışı, sözləri və hərəkətləri ən mükəmməl modeldir.

Onun əxlaqı, Allahın öydüyü və Quranın öyrətdiyi təmiz əxlaqdır. Hz. Peyğəmbərin həyat və əxlaqında, hər iş sahibi və hər səviyyədən olan insan üçün, ibrət alınacaq xüsusiyyətlər vardır.

Bu örnəkləri belə sıralaya bilərik: zəngin bir insan, hicrətdən bir neçə il sonra bütün Ərəbistana hakim olub, çox böyük sərvətlərə sahib olan və hər birini ehtiyac sahiblərinə paylayan Peyğəmbərimizi özünə örnək ala bilər.

Sahibsiz və kimsəsiz insanlar; Məkkə həyatı boyunca ağıla gəlməyən işgəncə və əzablara məruz qalıb, amma heç bir şəkildə məqsədindən və inancından geri çəkilməyən Peyğəmbəri özünə rəhbər götürə bilər.

Bir tələbə; Allah tərəfindən Quran ayələrini vəhy yolu ilə endirən Hz. Cəbrail qarşısında oturub Qurani-Kərimi öyrənən Peyğəmbərimizdən nümunə götürə bilər.

Vətən sevər bir komandir; Bədr və Hüneyn döyüşlərində düşməni məğlub edib, az saylı mücahidləri ilə bərabər çox saylı düşmən qarşısında böyük zəfərlər qazanan, Məkkənin fəthi zamanı möhtəşəm ordusuyla şəhərə daxil olarkən, təvazökar halından, başını dəvəsinin səmərinə qədər əyən mütəvazi bir Peyğəmbərdən ibrət ala bilər.

Peyğəmbərimizin həyatı, insanların məşğul olduğu və qarşılaşdıqları hər bir ehtiyaca cavab verən gözəl əxlaqın bütün qaydalarıyla bəzədilmiş nurlu bir zəncir kimidir. Ondan gələn işıq qığılcımları üsyan və günah bataqlığında çırpınan, əlacsız insanların qurtuluşa çatmalarına və sahilə çıxmalarına kömək olan bir dəniz fənəri hökmündədir.

Əkin-biçin sahibi bir insan; fəthlərin sonunda Xeybər, Bəni Nadir və Fədək torpaqlarına sahib olduqdan sonra o əraziləri islah edib, ən yaxşı şəkildə gəlir gətirəcək kimsələri iş başına gətirən, bir ovuc torpağı olmayan səhabələrinə əraziləri paylayan zəkalı və adil bir Peyğəmbərdən ibrət ala bilər.

Bir tacir; xanımı Hz. Xədicənin ticarətini işlədən, ticarətdə alıb-satanda doğruluqdan və dürüstlükdən ayrılmayan, Suriyaya, Bəsrəyə gedən qafilənin başçısı olan Peyğəmbərimizin ticari əxlaqını rəhbər götürə bilər.

Kiçik yaşda yetim qalmış bir uşaq; ana rəhmində altı aylıq ikən atasını itirən, altı yaşında anasının ölümünü görən, bütün həyatı anasız, atasız keçən, lakin daha sonra insanlığın öyündüyü, Allahın ən çox sevdiyi insan, **"inci kimi bir yetim"** olaraq sayılıb-sevilən Sevgili Peyğəmbərimizdən nümunə götürə bilər.

Ağlı başında olan bir gənc; gənclik illəri boyunca iffət, doğruluq, həya, ədəb timsalı olan, əmisi Əbu Talibin qoyunlarını otararaq həyatını qazanan gənc Məhəmmədin (s.ə.s.) həyatını özünə rəhbər edə bilər.

Elə bir rəhbər ki, ona tabe olduğumuz zaman həyatımızın qaranlıqları yox olub, onun nuru sayəsində yolumuz aydınlanar, həyatımız yeni bir nizam və sahmana girər.

Peyğəmbərimizin həyatı, insanların məşğul olduğu və qarşılaşdıqları hər bir ehtiyaca cavab verən gözəl əxlaqın bütün qaydalarıyla bəzədilmiş nurlu bir zəncir kimidir. Ondan gələn işıq qığılcımları üsyan və günah bataqlığında çırpınan, əlacsız insanların qurtuluşa çatmalarına və sahilə çıxmalarına kömək olan bir dəniz fənəri hökmündədir.

Nüşabə ƏHMƏDOVA

MƏDİNEYİ MÜNƏVVƏRƏ

Sevgili Peyğəmbərim, ziyarətinə gəldim Mədinəyi-Münəvvərə. Rəsulullaha qucaq açan o müqəddəs torpağa qədəm basan gündən dizlərim titrədi, Mədinəlilərin sənə arxa çıxdıqları anı xatırladım. Əyildim o müqəddəs torpağı öpdüm, təşəkkürümü bildirdim sənin üçün, səni qoruduqları üçün ya Rəsulullah!

İllərlə xəyalən yaşadığım günlər, saatlar, dəqiqələr reallaşmışdı. Ruhum mənə kömək etdi, onsuz da cismimdə canım yox idi, sənin kimi, sənə çox yaxın idim. İnana bilmirdim, sultanım. Məscidinə daxil oldum, sənə hədiyyə gətirmişdim. Quran oxumuşdum, nəsib olarsa Peyğəmbərin məscidində xətm edərəm demişdim. Etdim, ya Rəsulullah. Həm də minbərin qarşısında, ayaqda durmuş halda, təkbir söyləyərək. Göz yaşları məni boğurdu, əllərim göylərə uzanmış, dilim təkbir söyləyir, ətrafımdakı zəvvarlar da mənə qoşuldu. Millətindən asılı olmayaraq bütün Məhəmməd ümməti bir araya gəlmişdi sanki. O gün mənim meracım idi, ya Rəsulullah! Hansı ki, Sən meracdan qayıtdıqda yatağın hələ də isti idi, ey Sıddıq, mən də sənin kimi Hatəmənnəbi Mədinədən döndükdə sanki yatağım hələ isti idi.

Əlimdə bir qutu xurma var idi. Xurmaları Sənin sünnətini yadıma salıb ikram etdim Sənin qonaqlarına, ya Həbibim. Bu, mənə böyük sevinc gətirdi. Sanki mən Səni görürdüm, ya Rəsulullah. Qutunun içində qalan xurmaları özümlə Azərbaycana gətirdim, hər

Sənin şanın ucadır Allah dərgahında, Sevimli Peyğəmbərim. "Sən olmasaydın göyləri yaratmazdım, ya Məhəmməd", - demişdir Rəbbim. Adəm Peyğəmbər də Allahdan əfv dilərkən "Məhəmmədin hörmətinə məni əfv et, ya Rəbbim!"- demişdir.

cümə axşamı oruclu oluram və həmin xurma ilə iftarımı açıram. Sevgili Peyğəmbərim, qurtarmağına az qaldığı üçün çox kədərlənirəm, çünki o xurma mənə Səndən hədiyyədir. Nə olar Allahım, məni Əmin Allahın evinə bir daha dəvət et. Mən səndən doymadım, ya Rəsulullah.

Dövranın sonunda sonuncu Nəbi Sənsən, ya Həbibullah.

Sənə bir bərabər olan varsa, o da tək Sənsən, ya Abdulallah.

Ən gözəl günündə **"ümmətim"**- deyə şəfaət edənsən günahkar bəndəyə, ya Salavatullah.

Nəbilər önündə gedən Sənsən, ya Nəbiyullah.

Dəvətini gözləyirəm səbrlə. Mən səbri Səndən öyrəndim. Hicrəti də Səndən öyrəndim. Yolunun yolçusu olmaq istəyirəm, amma yetişə bilmirəm Sənə, çünki Sən dəryasan, mən isə damla.

Sənin şanın ucadır Allah dərgahında, Sevimli Peyğəmbərim. **"Sən olmasaydın göyləri yaratmazdım, ya Məhəmməd"**, - demişdir Rəbbim.

Adəm Peyğəmbər də Allahdan əfv dilərkən **"Məhəmmədin hörmətinə məni əfv et, ya Rəbbim!"**- demişdir. **Mən də Allaha babam Adəm kimi yalvarıram, məni də Sənin, ya Rəsulullah, Ya Məhəmməd (s.ə.s.), Sənin xatirinə əfv etsin və məni Sənlə cənnətdə görüşdürsün. Amin!**

PEYĞƏMBƏRİN TƏRİFİ

Böyük Məhəmmədə yüz min afərin!
Xilqət torpağıdır, buna ol əmin.
Həqiqət görənlər gözünə çıraq,
Varlığa bir zinət özüdür ancaq.
Vəfa meydanının qabaqcılıdır,
Nəbilərə rəhbər, başçı sayılır.
Günahkar ümməti qoymaz xəcalət,
Eyləyər onlara daim şəfaət.
Mənada Adəmin can kimyası,
Surətdə aləmin göz tutiyası.
Şəriət evinə qoymuşdur dörd hədd,
Qurmuş dörd divarla bir əbədiyyət.
Nübuvvətlə dini verdi yenilik,
Köməkçisi oldu ağıl və bilik.
Dini dünyada son din olduğundan,
Başqa dinlər batil edildi həmən.
O bütün xaslardan xas bir Ayazdır,
Məsuddan Mahmuda çatmış bir xasdır.
Bir nüsrət qılıncı Haqq vermiş ona,
Dəmirlə iz salır daşın bağrına.
Möcüzlə xar etdi bədgümanları,
Sıxdı daş qəlbilə yaşayanları.
Dostunu qarşılar gül tək gülərək,
Hər qeyddən azaddır dünya sərvitək.

Nizami Gəncəvi

Asim HƏMİDOV

FATİMƏNİN DASTANI

İnternetə düşmüşdü
Göynərtili bir xəbər:
Körpə köçdü Allaha
Eşqi dünyalar qədər.
Ömrü qısa, ürəyi
Haqq eşqilə doluydu,
O, bilirdi bir şeyi:
Yolu Haqqın yoluydu.
Mənalıysa, qısa da
Keçsə ömür, yaş budu!
Niyə belə insanlar
Görəsən az yaşadı?…
İbtidai məktəbi
Təzə bitirmişdi o,
Bir hafizlik kursuna

Pənah gətirmişdi o.
Qeydə götürmək üçün
Soruşanda adını,
Ciddi tövr ilə, ötkün
"Fatimə!" –dedi. Bunu,
Əlavə etdi həmən:
Rica edirəm sizdən,
İnciməyin bu sözdən:
Hafizlikdən savayı
Heç nə diləmirəm mən.
Əgər burada hafiz
Ola bilməyəcəyəm,
Heç qeydə almayın da,
Geri dönüm indidən!…
O körpə gözlərinin
Dərinliyindən gələn
Göz yaşı xəbər idi
Qəlbindəki sevgidən.
Qızcığaz böyük idi,
Böyük idi yaşından,
Ana da yalvarışlı
Tərzdə dilləndi haman:
Xanım, inciməyin, qız,
Belə ötkəmdir deyə –
Bir bənzərsiz təşnədir,
Təşnədir Hafizliyə…
Hər şeyi qurban verib,
Tamam atıb bir yana.
Bir hafizlik diləyib
Yalvarır Allahına.
Öz doğma kəndimizin
Xocasından dərs alıb,
Allah eşqilə yanır
Yaradana vurulub…
Peyğəmbər Əfəndimiz
Buyurub: Hafizlərə
Nurdan tac qoyulacaq;
Onların mərtəbəsi
Daha uca olacaq.
İnşallah, sayənizdə
Körpəm də hafiz olar.

Şagird müəlliminin
Zəhmətilə ucalar.
Çox dəqiq bilirsiniz
Bunları siz xocalar.
Susdu ana. Gözünün
Məyus baxışlarında
Bir hüznlük göründü,
Yaş da gəldi bu anda!…
Bu nə hüzndü belə?
Nə acı yaş idi bu?
Müəllimin əlindən
Öpməkçün gözü dolu
Əyiləndə ananı
Müəllim qabaqladı.
Tutub təzimlə onun
Əllərini saxladı.
Sonra ehtiram ilə
Ananın əllərindən
Öpərək gözü üstə
Müəllim qoyub həmən,
Əmin eylədi onu:
-Gedin arxayın, əlbət,
Körpə əvvəl Allaha,
Sonra bizə əmanət!

***

Günlər keçdikcə uşaq
Tamam başqalaşırdı.
Necə çətinlik olsa
Məharətlə aşırdı.
Var idi hər məqamda
Öz baxışı, qərarı,
Nə qədər qabaqlayıb
Ötmüşdü yaşıdları.
Onun tövrləri də
Dəyişirdi günbəgün,
Xocanın ürəyini
Fəth etmişdi büsbütün.
Yuxusunda Qurandan
Gecə ayə söylərdi,
Gündüz xocadan nələr,
Nələr sual eylərdi!…

Yenə də sordu bir gün:
Xocam, hafiz olmaqçün
Quranı gərək tamam
Əzbər öyrənsin adam?
Xoca dedi: Əzizim,
Heç narahat olma sən,
Bir də gördün Quranı
Əzbərlədin, hafizsən!
Bu sözdən çıraq yandı
Elə bil gözlərində,
Aşkar sevinc göründü,
Qəm gizləndi dərində.
Bəs niyə söyləmirdi
Xocasına dərdini?
Dərdin öhdəsindən o,
Tək gələ bilərdimi?…
Yoxsa belə fikirli
Günlərimi o, saydı?
Ah nə olardı sirli
Heç nə yaranmasaydı!…
Bir dəfə də bir uşaq
Sual etdi Xocadan:
–Bu doğrumu, hafizlə
Dəstəmazsız heç zaman
Görüşə bilməz insan?
Deyəndə bilmişik biz
Fatimənin anası.
Bir izah edərdiniz
Nədir bunun mənası?
Ürəyində bu işə
Xoca: Afərin! –dedi.
Ana müdrikliyinə
Qəlbən təzim eylədi.
Hamını ovsunlayıb,
Sözündə hikmətə bax!
Bundan müqəddəs sayıb
Yəqin ananı Allah.
Şükür sənə, İlahi!
Sənsən hər şeyi verən-
Ana böyüklüyündən
Böyük pay varmı görən?…
Nəzər salıb mehriban
Baxışla o, qızlara
Dedi: -Əziz balalar,
Osmanlı zamanında
Qurana, hafizlərə
Sevgi dərindi, dərin,
Bu, hökmüydü qəlblərin.
Hafizlər əsil canlı
Quran sayıldığından
Onda deyilib o söz
Qalır, qalacaq hər an.
Bu cavabdan çox məmnun,
Çox razı qalıb onlar
Özlərini, əlçatmaz
Bir xəzinə sandılar.
Xoca da öz-özünə
Dedi: -Haqlı sanırlar:
Ayrılıb ata-ana

Qayğısından uşaqlar
Buraya ki, gəliblər,
Gör onlarda nə sidq var!
Allahın Kəlamını
Bu yaşda əzbər bilən
Örnəkdir insanlığa,
Örnəkdir Haqdan gələn.
Körpələr Haqq yolunda
Yollar keçib gəlirlər.
Böyüklər var nə surə,
Nə bir ayə bilirlər…
Aman, aman! Bu bivec
Ömür ilə dünyada,
Üz döndərib Allahdan
Çıxmışıq bivəfa da…
Necə aparsın bu yol
De bizi uzaqlara?
Sahibindən dönən qul,
Hara gedirsən, hara?
Allah verən bu ömrü
Allah yoluna gətir;
İmansızlıq fəqiri,
Gəl körpədən dərs götür!

***

...Fatimənin günbəgün
Pozulurdu əhvalı,
İki dəfə dalbadal
Çox ağır oldu halı.
Onu belə görüncə
Xoca düşündü: "Uşaq
Bəlkə də çox sıxılır
Evdən ayrı qalaraq?…"
Sordu: -Sənə nə olub?
Gizlətmə, açıq söylə.
Yoxsa anan üçünmü
Darıxırsan bir belə?
Küskün, məsum baxışla
Dönüb Xocaya baxdı,
Solmuş bəniz, yaşlı göz…
Bu nə dərin uşaqdı!
-Xeyr! Deyib o, susdu,
Yerə tikdi gözünü.
Görüncə daha solğun
Rəng almış bənizini,
Xoca dözə bilmədi
Qəlb ağrıdan bu yükə,
Söylədi öz-özünə:
-"Qəlbinə dəydim bəlkə?…"
Axır ki, cürət tapıb
Özü dilləndi uşaq:
–Qorxuram, qoyub getsəm
Cəzalandırar Allah.
Rizasını qazanmaq
Yolunda can qoyurkən,
Sapınıb doğru yoldan
Günahmı eyləyim mən?…
Xoca xanım bu sözə
Çaşıb qaldı: Ay Allah!
Körpənin qəlbindəki
İmana bax, sidqə bax

Ardı var...

Müyesser TAŞLIYAR

LƏZZƏT DÜNYASI

ETİMEK

Ərzaqlar:

1paket duzsuz etimek suxarısı
1,5 stəkan şəkər tozu
1,5 stəkan su
1 pudinq
4,5 st süd
Krem şanti

Hazırlanması:

Suxarıları bir formaya düzürük, sonra isə şəkər tozuna suyu əlavə edib şərbət hazırlayırıq. Şərbət bir az soyuduqdan sonra suxarının üstünə tökürük. Sonra 3,5 stəkan südə pudinqi əlavə edib qatılaşana qədər qaynadırıq. Hazırladığımız pudinqi suxarıların üstünə tökürük. Sonra bir stəkan soyuq südlə krem şantini mikserlə yaxşıca qarışdırırıq. Onu da pudinq soyuduqdan sonra pudinqin üstündən çəkirik. Üzərinə isə bəzəmək üçün qozdan və kakosdan istifadə etmək olar.

Nuş olsun!

QARNIYARIQ

Ərzaqlar:
6 ədəd yuxa
Üzərinə vurmaq üçün bir yumurta
1stəkan süd, yarım stəkan bitki yağı

İçlik üçün ərzaqlar:
1 ədəd soğan
1 kasa qiymə
2 ədəd pomidor
2 ədəd bibər
2 çay qaşığı tomat
Duz, qara istiot, pul bibər

Hazırlanması:

Soğanları xırda-xırda doğrayıb, qızarana qədər qovurursunuz, bibərləri də əlavə edib yaxşıca qovurun, sonra xırda-xırda doğranmış pomidorları əlavə edin, tomat, duz, istiotu da əlavə edib qazanın qapağını örtün. Pomidorları yaxşıca vam xodda bişirin. Sonra isə yuxanın birini sərin üstünə yağ və süd sürtün, bir qat yuxanı da üstündən sərin. Onun da üstünü bol-bol süd və yağla isladın. Yuxanı 8 ədəd 3 künc formada hissələrə bölün. Hər hissəyə hazırladığınız içlikdən qoyun və kənarlarını qatlayın. Bu şəkildə hazırladığınız qarnı yarığı listlərə düzün və şəkildə göründüyü kimi hər qarnı yarığın ortasından bıçaqla azacıq yarın, dibinə qədər kəsməməyə diqqət edin. Sonra da üzərinə yumurta sürtüb 170 C-də bişirin.

Nuş olsun!

Məryəm XƏLİLOVA

FAYDALI MƏSLƏHƏTLƏR

Sosisləri qızartdıqda partlamaması üçün bir neçə yerindən iynə ilə deşin.

Şorba bişirdiyinizdə hər an daşma təhlükəsi olur. Onun qarşısını almaq üçün içinə bir-neçə buz parçası ata bilərsiniz.

Balığın yaxşıca qızarması üçün əvvəl bir az südün içinə salın, sonra unlayıb tavaya atın.

Balın təmiz bal olub-olmadığını yoxlamaq üçün baldan bir qaşıq götürüb soyuq suda əzin. Su ağararsa içində un və yaxud nişasta vardır.

Buzluqdan çıxardığınız ətin tez qopması üçün bir qabın içinə soyuq su və duz atın. Sonra isə əti içinə qoyun.





Sobada kartof bişirdikdə, onu əvvəl bir-neçə dəqiqə qaynadın və bir neçə yerindən deşin, o zaman rahat bişdiyini görəcəksiniz.

CƏMİYYƏT İÇİNDƏ DAVRANIŞ QAYDALARI

Yaşıdlarımızı adlarıyla çağıra bilərik. Amma bizdən yaşca böyük insanlara yaş və mövqelərinə görə Sevda xala, Əli əmi, Həsən bəy kimi müraciət etmək lazımdır.

Bəyənmədiyimiz bir fikir qarşısında biz də öz fikrimizi bildirməliyik. *"Çox pis bir fikirdir, axmaq və məntiqsizdir"* kimi kobud ifadələr işlətməməliyik. Bunun əvəzinə "bu cür olması, məncə, daha yaxşı olar, üzr istəyirəm, amma bu haqda sizin kimi düşünürəm" - deyərək qarşımızdakı insanı incitməyəcək şəkildə fikrimizi bildirməliyik.

Paxıllıq çox pis bir davranışdır. Dostlarımızın bizdən yaxşı olan tərəflərini, müvəffəqiyyətlərini qısqanmaqdansa nümunə almağa çalışmalıyıq.

Başqalarına aid olan əşyaları, qeydləri onların icazəsi olmadan əl vurmamalıyıq.

***

Qohumlarımızın və tanışlarımızın ölənləri olarsa baş sağlığı ziyarətinə getməliyik və onların dərdlərini bölüşməliyik. Ölən adamın isə yaxşı cəhətlərini xatırlamalıyıq.

Hicran NOVRUZOVA

GƏLİN BİRLİKDƏ GÜLƏK

DUA

Bir gün ata oğlunun dua etdiyini görür və eşidir: *"Allahım, sən anamı, atamı, bacımı, nənəmi və məni qoru"*. Atası uşağın babasını unutduğunu düşünür. Sabahkı gün babasını maşın vurur və babası ölür. Bir-neçə gün sonra uşağın dua etdiyini atası yenə eşidir: *"Allahım, sən anamı, atamı, bacımı və məni qoru"*. Bu dəfə də nənəni unudur və sabakı gün nənə də pilləkənlərdən yıxılır, boynu sınaraq ölür. Bir neçə gün sonra uşaq yenə dua edir: *"Allahım, sən anamı, bacımı və məni qoru"*. Atası onu unutduğunu bilir və başına bir iş gəlməsin deyə diqqətli olmağa çalışır. Axşam evə gəldikdə yoldaşından soruşur: *"Bu gün mən işdəykən nə baş verdi?"* Yoldaşı: *"Bizə bir şey olmadı, poçtalyon öldü"*, - deyə cavab verdi.

DIRNAQ YEYƏN UŞAQ

Bir uşaq durmadan dırnaqlarını yeyərmiş. Anası oğlunu bu vərdişdən uzaqlaşdırmaq üçün çox çalışır. Bir gün parkda gəzərkən yekəqarın bir adamla rastlaşırlar. Uşaq adamın qarnından çox qorxur. Anasından soruşur: *"Əminin qarnı niyə elə böyükdü?"* Anası da: *"Əlimə yaxşı fürsət düşüb"*,- deyir. Həmin adamın dırnaq yediyi üçün qarnının bu qədər şişdiyini və o da dırnaqlarını yeməyi tərk etməsə onun kimi olacağını söyləyir. Beləliklə, uşaq bu pis vərdişdən uzaqlaşır.

Yenə bir gün avtobusda getdikdə uşaq hamilə bir qadın görür və başlayır gülməyə. Qadın: *"Oğlum, niyə belə gülürsən?"*- deyir.

Uşaq: *"Nə yeyib qarnının böyük olduğunu bilirəm"*,- deyə cavab verir.

SİZDƏN GƏLƏN

Əvvəlcə **"Bizim Ailə"** jurnalının redaktoruna və redaksiya heyətinə dərin minnətdarlığımı bildirirəm. Bildirmək istəyirəm ki, **"Bizim Ailə"** jurnalı insanları çox yüksək dini-əxlaqi, ibrətamiz tərbiyəyə təhrik edən təsirə malikdir. Bu jurnalda Uca Allaha, Peyğəmbərimiz (s.ə.s.)ə, Müqəddəs Kitabımıza aid yazılan yazılar dinimizi daha kamil öyrənməyə, qəlbimizi saflaşdırmağa çağırır. Jurnalda təkcə dinə yox, vətənə sevgi, böyüklərə hörmət, kiçiklərə şəfqət öz əksini tapmışdır. Xanımlarımıza dəyərli məsləhətlər, kiçiklərimizə tərbiyəedici lətifələr jurnalı olduqca maraqlı edir. Atam **"İrfan"** jurnalına abunədir. Hər dəfə **"Bizim Ailə"** jurnalını gətirəndə qardaşlarımla birlikdə oxuyuruq və beləliklə, dini biliklərimizi daha da möhkəmləndiririk. Bunu da qeyd edim ki, **"Bizim Ailə"** jurnalı təkcə bizim kəndin yox, Azərbaycanın sevimli jurnalıdır. İnşallah, bu jurnal daha çox çap olunar və müsəlman bacı-qardaşlarımız oxuyar. İnanıram ki, müəllimlərimiz orta məktəb şagirdləri üçün bu jurnaldan dərs vəsaiti kimi istifadə etsə və balacalarımız özünü dərk etməyə başladığı andan Allahı sevsə, dinimizin şərtlərinə əməl etsə təkcə dünyamızı yox, axirətimizi də gözəlləşdirərik...

Rüstəmli Kəmalə Ümidvar qızı Qax rayonu Qaşqaçay kəndi Orta məktəbi X-sinif şagirdi

XANIMLAR XEYİRXAH İŞLƏRDƏ

Hər ilin mart ayında qadınıların beynəlxalq bayramı ərəfəsində Gəncliyə Yardım Fondunun tərkibində **"Azərbaycanlı və Türkiyəli xanımların əl işləri Xeyriyyə Sərgisi"** təşkil olunur. Bu sərgidən əldə olunan vəsait xalqımızın milli problemlərinə həsr edilir. Belə ki, bu il yeddincisi keçiriləcək bu sərginin ilkindən əldə olunan vəsait hesabına **"Qarabağ suallar və Faktlar"** kitabının nəşri həyata keçirilmiş və müxtəlif dillərə tərcümə olunaraq dünya arenasına çıxarılmışdır. Eyni zamanda Xocalı soyqırımında şəhid olan ailələrə bu sərgi hesabına humanitar yardımlar edilmişdir. 2008-ci ildə keçirilən sərgidən əldə edilən vəsaitsə **"2008-ci ildə Qocalar evinə yardım"** layihəsi əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bilgəh qəsəbəsində yerləşən Müharibə və əmək əlilləri üçün pansionatına kimsəsiz qoca və əlillərin ümumi sosial-məişət şəraitinin yaxşılaşdırılmasına sərf olunmuşdur. Gəncliyə Yardım Fondunda keçirilən ötənilki xeyriyyə sərgisindən əldə olunan gəlirlər isə, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2009-cu ilin Uşaq ili elan edilməsi haqqında, 2008-ci il 22 dekabr tarixli 103 nömrəli sərəncamının icrasına dəstək olmaq məqsədilə **"Uşaqlar arasında dişlərə qulluq mədəniyyətinin formalaşması"** mövzusunda Bakı şəhər orta ümumtəhsil müəssisələrində təşkil olunmuş layihəyə xərclənmişdir.

Yeri gəlmişkən deyək ki, xeyirsever xalqımızın bu sərgilərə marağı yüksək səviyyədədir. Keçirilən sərgilərdə ölkəmizin qabaqcıl ziyalıları, elm və dövlət xadimləri, millət vəkilləri də şəxsən iştirak edərək bu xeyirxah işdə öz dəstəklərini əsirgəmirlər.

Bu il də fond öz ənənəsinə sadiq qalaraq mart ayının 6-da yeni sərgiyə start verəcək. Gəncliyə Yardım Fondu bu xeyriyyəçilik işində hər kəsi birliyə və həmrəyliyə dəvət edir.